


## Ali Radanın deputatı Lyudmila Buymister: “Azərbaycan Ukrayna üçün yaxşı bir örnəkdir”

5



Səs
№ 230 (6430) 16 dekabr 2021-ci il. Qiymətı 40 qəpik




# Prezident İlham Əliyevin Brüssel səfəri Türkiyə mediası tərəfindən geniş işıqlandırılıb

# “Biz sülh istəyirik, yetərincə müharibə oldu”

*"Biz istənilən halda qonşuyuq, heç birimiz başqa planetə köçməyəcəyik. Ona görə də, biz xalqlar arasında təmaslar da daxil olmaqla münasibətlərin normallaşması üçün yavaş-yavaş, addım-addım təməl hazırlayaraq yanaşı yaşamağı öyrənməliyik"*



## “Ermənistan Azərbaycan və Türkiyə ilə normal münasibətlər qurmaq üçün bir çox iddialarından əl çəkməlidir”




*Ermənistanda güman edirdilər ki, Azərbaycan işğal altındakı əraziləri azad etməyə başlayandan dərhal sonra Rusiya qoşunlarını Qarabağa yürüdəcək və Ermənistan ordusu 1992-ci ildə olduğu kimi, Rusiya hərbçilərinin arxasında gizlənəcək.*

## Azərbaycan mətbuatı üçün yeni üfüqlər

*Azərbaycan mətbuatı üçün yeni üfüqlər Azərbaycan cəmiyyətinin inkişafına öz töhfəsini verən milli mətbuat tarix boyu maariflənmədə, milli düşüncəsinin formalaşmasında mühüm rol oynayıb. Mətbuat sahəsində yaradılmış ənənələri daha da möhkəmləndirən Prezident İlham Əliyevin xüsusi diqqəti və qayğısı nəticəsində...* 10

## Azərbaycanda dönər dəhşəti: yeyək, yoxsa yox - FOTOREPORTAJ



*Dünyanın bütün yerində tez-bazar hazırlanan qidalardan geniş şəkildə istifadə olunduğu kimi, Azərbaycanda da bu kimi hallara az rast gəlinmir. Bunlara nümunə kimi dönər, şaurma və s. qidaların adını çəkmək olar.*

## Levandovski Müllerin rekordunu təkrarladı

*"Bavariya" Almaniya Bundesliqasının 16-cı turunda "Ştutqart"a 5:0 hesabı ilə qalib gəlib. Qol.az xəbər verir ki, səfərdə dubl edən Robert Levandovski üçün bu oyun əlamətdar olub.*



16

## Sergey Danielyan: “Ermənilərdə azərbaycanlılara qarşı yüz illərdir yetişdirilən fizioloji nifrət var”

15



*Tanınmış rusiyalı ssenarist və prodüser Sergey Danielyan "Caliber" analitik mərkəzinə müsahibəsində Ermənistan-Azərbaycan münaqişəsi və iki xalq arasındakı münasibətlərlə bağlı maraqlı fikirlər səsləndirib. Müsahibəni oxucularımıza təqdim edirik.*



## Bəhruz Quliyev: “Azərbaycanın adıçəkilən hərbi alyansla əməkdaşlığı dərin köklərə əsaslanır”

9

“**NATO**-nun 20-yə yaxın ölkəsi Azərbaycandan neft idxal edir”. Bunu Prezident İlham Əliyev Belçika Krallığının paytaxtı Brüsseldə NATO-nun Şimali...



## Sosial şəbəkələrdə falçılar insanları NECƏ ALDADIR?

16

*“Kommunikasiya İnformasiya Texnologiyasının (İKT) inkişafı Azərbaycanda hər kəsə virtual aləmdə geniş fəaliyyət göstərmək imkanı yaratdı...*

# “Biz sülh istəyirik, yetərincə müharibə oldu”

## Prezident İlham Əliyev İspaniyanın "El Pais" qəzetinə müsahibə verib

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 14-də Brüsseldə İspaniyanın ”El Pais” qəzetinə müsahibə verib. AZƏRTAC müsahibəni təqdim edir.***



Müxbir: Əvvəla, bizi qəbul etdiyiniz, Brüsseli ziyarət etdiyiniz üçün Sizə təşəkkür edirik. Belə bir xüsusi məqamda bizi qəbul etdiyinizə və bizə bu müsahibənin aparılmasına imkan yaratdığınıza görə təşəkkür edirik. Geosiyasi vəziyyət nöqteyi-nəzərindən böyük miqyasda, Avropa İttifaqı və onun qonşuları nöqteyi-nəzərindən kiçik miqyasda çox maraqlı məqamdır. Buna görə Sizə təşəkkür edirik.

Əvvəlcə, mən Ermənistanla hazırkı vəziyyət haqqında Sizdən soruşmaq istəyirəm. Hazırda vəziyyət nə yerdədir? Biz bir aydan da az müddətdən əvvəl sərhəddə ölümcül toqquşmaların olduğunu bilirik. Əlbəttə ki, hər iki tərəf məsuliyyəti bir-birinin üzərinə atır. Bu son hadisələrdə nəyin baş verdiyini və hazırkı vəziyyətin nədən ibarət olduğunu bilmək istəyirəm.

Prezident İlham Əliyev: Müharibə bitəndən bəri 1 ildən çox müddət keçib və ümumiyyətlə, vəziyyət nisbətən sabitdir. Rusiya sülhməramlı qüvvələrinin Qarabağda məsuliyyət daşıdığı ərazidən danışırıqsa, vəziyyət Ermənistan-Azərbaycan sərhədində olan vəziyyətlə müqayisədə daha çox sabitdir. Bunun səbəbi isə əfsuslar olsun ki, Ermənistanın qisas almaq cəhdlərindən vaz keçməməsidir. İkinci Qarabağ müharibəsində məğlubiyyət onlar üçün çox ağrılı oldu. Bu məğlubiyyət demək olar ki, onların otuz ildir davam edən ”yenilməz ordusu”, ”gücü”, ”əsgər və komandirlərinin cəsarəti” haqqında müharibə təbliğatını və ideoloji zəminini darmadağın etdi. 44 gün davam edən müharibə zamanı Ermənistan ordusu tamamilə məhv edildi və onlar ötən il noyabrın 10-da kapitulyasiya aktına imza atmaq məcburiyyətində qalaraq bizim 44 günlük müharibədə geri almadığımız əraziləri geri qaytarmağa razılıq bildirdilər. Buna görə də Ermənistan cəmiyyətində, siyasi spektrində revanşizm əlamətləri görünür. Buna görə də Rusiya sülhməramlılarının xidmət etdiyi ərazidə buna imkanın olmadığını dərk edərək onlar dövlət sərhədində hərbi təxribatlar törətməyə cəhd göstərirlər.

Digər məsələ isə ondan ibarətdir ki, Azərbaycan və Ermənistan arasında dövlət sərhədi təyin olunmayıb. Buna səbəb 1990-cı illərin əvvəlində hər iki ölkənin müstəqilliyinin bərpasından dərhal sonra Azərbaycanın həmin hissəsinin işğalının baş verməsi idi. Buna görə həm fiziki, həm də siyasi olaraq sərhədləri demarkasiya və delimitasiya etmək mümkün deyildi. Beləliklə, keçən ilin noyabrında İkinci Qarabağ müharibəsi bitəndə həmin ərazidə iqlim şəraiti digər ərazilərdən fərqli idi. Uca dağlar və qarla dolu bir ərazi idi. Bu ilin may ayında qar əriməyə başladı. Bu baş verən kimi Azərbaycan Ordusu dövlət sərhədinə tərəf hərəkət etməyə başladı və bu sərhədin haradan keçməsi ilə bağlı olan anlayışımıza əsasən, dövlət sərhədində mövqe tutdu. Yəni, hadisə belə olub. Əfsuslar olsun ki, Ermənistan Azərbaycanın hər hansı bir səbəb olmadan Ermənistanın ərazisinə müdaxilə etməsi ilə bağlı iddialar irəli sürməyə başladı. Beləliklə, biz öz ərazimiz hesab etdiyimiz ərazidə dururuq. Qarabağ müharibəsinin bitməsindən sonra lap ilk günlərdən Ermənistana sərhədlərin demarkasiyası üzərində işləməyə başlamağı və delimitasiya üzrə birgə işçi qrupunu yaratmağı və ərazidə bütün mübahisələri masa üzərində aydınlaşdırmağı təklif etdik. Müharibə bitəndən sonra bir ildən çox müddətdə Ermənistan tərəfindən dövlət sərhədində hərbi təxribatlar törətmək üçün bir neçə cəhd edilib. Onların hamısı uğursuz oldu. Bütün bu səylər nəticəsində onlar öz hərbi mövqelərini itirdi və Azərbaycan dövlət sərhədində mövqelərini gücləndirdi. Eyni hal keçən ay baş verdi. O zaman onlar bilərəkdən Azərbaycan Ordusuna qarşı qəsdən təxribat törətdilər və bu, bir neçə gün davam etdi. İlk günlər ərzində atəş açılmırdı, çünki Azərbaycan əsgərləri həmin ərazinin onlara aid olmadığını və getməli olduqlarını onlara başa saldı və onlar da getdilər. Lakin bizə qarşı artilleriya hücumlarına başladılar. Bizdə bir neçə nəfər həlak oldu və yaralandı. İndi vəziyyət sabitdir. Biz özümüz heç nə planlaşdırmamışdıq, əks halda biz dayanmazdıq. Noyabrın 16-da baş vermiş toqquşma bir gündən az davam etdi. Səhər başladı və axşam saat 6-7 radələrində bitdi. Beləliklə, biz bunu planlaşdırsaydıq dayanmazdıq, çünki Ermənistanın istənilən yerdə bizi dayandırmaq üçün hərbi bacarığı yoxdur. Bizim belə planlarımız yoxdur və buna görə də biz dayandıq.

> "İndi Azərbaycan və Ermənistan arasında dəmir yolu əlaqəsinin açılması ilə bağlı tam razılıq var"

Biz sülh istəyirik, yetərincə müharibə oldu. Biz sabitlik, proqnozlaşdırma və Ermənistan tərəfindən istənilən revanşizm cəhdləri riskinin sıfır səviyyədə olmasını istəyirik. Buna görə biz onların bütün manevrlərini, yenidən qruplaşmalarını və bizə təhlükəli ola biləcək hərbi potensial yaratmaq üçün bütün cəhdlərini çox yaxından izləyəcəyik. Bunun baş verdiyini görsək, təhlükəni dərhal aradan qaldıracağıq və onlar bunu bilirlər. Beynəlxalq oyunçular də bunu bilirlər. Müsbət dinamika görsək, biz, əlbəttə ki, bundan yararlanacağıq və sülhün gücləndirilməsinə öz töhfəmizi verəcəyik.

***- Cənab Prezident, Sizcə Ermənistanla, sadəcə, atəşkəs deyil, real sülh sazişi haqqında nə zaman danışmaq olar?***

-Yəqin ki, bu sualı Ermənistana ünvanlamaq lazımdır. Mən dəfələrlə açıq bəyanat vermişəm ki, Azərbaycan Ermənistanla sülh danışıqlarına və sülh razılaşması üzərində işləməyə başlamağa hazırdır. Bu vaxta kimi Ermənistan rəhbərliyindən heç bir cavab verilməmişdir. Mən bu cür bəyanatları altı aydan çoxdur ki, dəfələrlə etmişəm. Bu, onların sülh istəmədiyini göstərir, çünki imzalandığı təqdirdə sülh razılaşmasının əsas müddəalarından biri də hər iki ölkənin ərazi bütövlüyünün qarşılıqlı tanınması olacaq və Ermənistan Azərbaycanın ərazi bütövlüyünü tanımaq istəmir. Bütün dünya Azərbaycanın ərazi bütövlüyünü və Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyır. Ermənistan nə ərazi bütövlüyünü tanıdığını, nə də tanımadığını söyləyir. İkinci Qarabağ müharibəsindən əvvəl onlar deyirdilər və onların baş naziri açıq şəkildə bildirmişdi ki, ”Qarabağ Ermənistandır və nöqtə”. Bu bəyanat, əslində, danışıqlar prosesini məhv etdi və onların keçən il yaşadığı acı məğlubiyyətin elementlərindən biri idi. Lakin indi Ermənistanın sanki bu məsələ ilə bağlı heç bir mövqeyi yoxdur. Biz çox açıq şəkildə deyirik ki, dərhal Ermənistanla hərtərəfli sülh razılaşması üzərində danışıqlara başlamaq istəyirik. Sizin dediyiniz kimi, bu, atəşkəs razılaşması yox, tam sülh razılaşması olacaq. Lakin ümid edirəm ki, yəqin Avropa tərəfdaşları Ermənistanı bu mövqeyinin gələcəyinin olmamasına inandıra biləcəklər. Hesab edirəm ki, Azərbaycanla sülh razılaşması olmazsa, onlar gələcəkdə yenə də əziyyət çəkə bilərlər.

***-Siz indi sərhədləri təkrar açmaq istəyirsiniz? Əlbəttə ki, bu sual əvvəlki sualla bağlıdır. Ermənistanla münasibətləri normallaşdırmaq üçün Siz sərhədləri açmağa hazırsınızmı və bunun baş verməsi üçün şərtlər nədir?***

-Bəli, biz sərhədləri açmaq istəyirik. Bu vaxta kimi Azərbaycanın, Ermənistanın və Rusiyanın Baş nazirlərinin müavinlərinin rəhbərlik etdiyi üçtərəfli işçi qrup çərçivəsində bir neçə dəfə danışıqlar baş tutub. Bu işçi qrupunun əsas məqsədi və vəzifəsi kommunikasiyaların açılmasıdır. Danışıqların bir neçə mərhələsi nisbətən uğurlu olub. İndi Azərbaycan və Ermənistan arasında dəmir yolu əlaqəsinin açılması ilə bağlı tam razılıq var və biz Ermənistan sərhədi istiqamətində azad edilmiş ərazilərdə sökülmüş dəmir yolu xəttini tikməyə başlamışıq. Eyni zamanda, əvvəlki aylarda Ermənistan avtomobil yolunun açılmasına etiraz edirdi, lakin indi biz onları bunun qaçılmaz olduğuna inandıra bilmişik və onlar da bununla razılaşır. Beləliklə, anlaşma var. İndi biz bu dəhlizlərin, Azərbaycandan keçib Ermənistana gedən və sonra Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikasına gedən Zəngəzur dəhlizinin hüquqi rejimini müzakirə edirik. Burada bizim hələ də açıq qalan müəyyən məsələlərimiz var. Lakin hesab edirəm ki, hər iki ölkə bunun baş verməli olduğunu qəbul edir və yeri gəlmişkən, keçən ay Soçidə Prezident Putinin təşəbbüsü ilə keçirilən üçtərəfli görüş zamanı biz kommunikasiyaların açılmasından açıq şəkildə bəhs edən bəyannaməni qəbul etdik. Beləliklə, bu, baş verəcək. Yeri gəlmişkən, hava məkanı artıq aktivləşib. İndi Azərbaycan Hava Yollarının Bakıdan Naxçıvana uçan təyyarələri Ermənistan hava məkanından keçməyə başlayıb.

Ardı Səh. 3

# "Biz sülh istəyirik, yetərincə müharibə oldu"

## Prezident İlham Əliyev İspaniyanın "El Pais" qəzetinə müsahibə verib

Əvvəli-Səh-2

***-Ermənistanın baş naziri ilə görüşün keçirilməsi Brüsseldə elan olunduqda Avropa İttifaqının bəyanatında deyilirdi ki, niyyət firavan və sabit Cənubi Qafqaz naminə gərginliklərin aradan qaldırılması yollarını tapmaqdır. Əlbəttə ki, mən Ermənistan ərazisindən keçən bu dəmir yolunu və avtomobil yolunu düşündüm. Lakin Brüsseldəki görüşdən nələri gözləyə bilərik?***

-Bunu söyləmək çətindir, çünki biz bu gün keçiriləcək görüşün nə ilə nəticələndiyini görməliyik. Lakin biz Avropa Komissiyasının və şəxsən Avropa İttifaqı Şurasının Prezidenti cənab Şarl Mişelin fəaliyyətini çox yüksək qiymətləndiririk. O, Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşması üçün zəminin yaradılmasına çoxlu töhfə verir. Prezident Mişelin bu yay regiona səfəri çox məhsuldar olub. Yeri gəlmişkən, hər iki ölkənin müdafiə nazirləri arasında birbaşa əlaqənin yaradılması ilə bağlı olan onun təşəbbüsü də işləyir. Beləliklə, indi bu kommunikasiya kanalı artıq səmərəlidir. Bu, Avropa Komissiyasının Cənubi Qafqazda sabit mühitin yaradılmasına şərait yaratmağa və gələcəkdə üç Cənub Qafqaz ölkəsi arasında qarşılıqlı əlaqənin üçtərəfli formatının yaradılmasına imkan yaratmağa istəkli və hazırlıqlı olduğunu açıq-aydın göstərir. Azərbaycanın mövqeyi tamamilə açıq və aydındır. Biz sülh istəyirik, müharibə istəmirik. Biz müharibəni udduq, biz qalibik və bu reallıq nəzərə alınmalıdır. Dağlıq Qarabağ münaqişəsi həll olunub. Dağlıq Qarabağın qondarma statusu ilə bağlı və ya buna bənzər hər hansı müzakirələrə qayıdış yoxdur. Biz onu özümüz, güc yolu və siyasi vasitələrlə həll etdik. Biz BMT Təhlükəsizlik Şurasının qətnamələri qəbul olunandan 27 il sonra bunu birtərəfli qaydada həyata keçirdik və bu, ilk növbədə, Ermənistan tərəfindən nəzərə alınmalı olan yeni reallıqdır. Çünki postmüharibə vəziyyətinin gedişatından gördüyümüz kimi əsas beynəlxalq oyunçular artıq yeni reallığı qəbul edib və gələcəyi bu yeni reallığa əsaslanaraq qurmağa çalışırlar. Ermənistan Azərbaycana qarşı istənilən düşmənçilik əməllərindən çəkinməli, Azərbaycana qarşı ərazi iddialarından çəkinməlidir. Çünki mən bir neçə dəfə demişəm ki, bizim Ermənistana qarşı ərazi iddialarımızın olması üçün çox tarixi səbəblərimiz var. Onlar sülh razılaşması üzərində işləməli və XXI əsrdə normal davranışa riayət etməlidirlər. Biz istənilən halda qonşuyuq, heç birimiz başqa planetə köçməyəcəyik. Ona görə də, biz xalqlar arasında təmaslar da daxil olmaqla münasibətlərin normallaşması üçün yavaş-yavaş, addım-addım təməl hazırlayaraq yanaşı yaşamağı öyrənməliyik. Biz açıq şəkildə demişik ki, buna hazırıq. Lakin hələ ki, Ermənistan tərəfdən heç bir müsbət işarə almamışıq. Mənə elə gəlir ki, Ermənistanda daxili vəziyyət və bayaq qeyd etdiyim kimi, müharibədə məğlubiyyətlərindən sonra məyusluq və yumşaq desəm, narazılıq, şişirdilmiş gözləntilər, hərbi və siyasi potensiallarının qeyri-real qiymətləndirilməsi səbəbilə onların cəmiyyətində bir növ psixoloji travma yarandı. Ona görə də, Ermənistan hökumətinin azərbaycanlılara qarşı nifrətin aşılanmasına əsaslanan ictimai rəyin arxasında dayanmaması və normallaşma prosesində öndə getməsi vacibdir. İctimai rəy formalaşdırılmalıdır. Ermənistanın inkişafı üçün yeganə yol Azərbaycanla əlaqələrin normallaşdırılması, Türkiyə ilə əlaqələrin normallaşdırılması, qonşu olmaq, düşmən qonşu deyil, normal qonşu olmaq və ərazi iddialarından çəkinmək məqsədilə insanları inandırmaq üçün mühüm addımların atılmasıdır. Düşünürəm ki, əgər bu formul Ermənistan hökuməti və siyasi elita tərəfindən qəbul edilsə, bizim irəliləyiş üçün şansımız var. Bizə gəlincə isə, bizim mövqeyimiz açıq-aşkardır. Mən bunu dəfələrlə açıq şəkildə dilə gətirmişəm və bir daha deyirəm ki, biz Cənubi Qafqaz üçün sülh istəyirik, sabitlik, təhlükəsizlik və çiçəklənən gələcək istəyirik.

***-Sizcə, burada, Brüsseldə Avropa İttifaqının rəhbərliyi ilə təmas Soçidəki son görüşdən nə ilə fərqlənir? DeməK istəyirəm ki, görünür, cənab Putinin rəhbərliyi ilə artıq çox işlər görülüb. Siz Brüsseldəki təmasların fərqi barədə nə deyərdiniz?***

-Səmimi desək, mən heç bir fərq görmürəm. Çünki mən iki ölkə arasındakı münasibətlərin normallaşmasına kömək etmək üçün Rusiya və Avropa İttifaqının həqiqi istəyini görürəm. Əks halda, onlar bu danışıqlarda bizə vaxt sərf etməzdilər və bizim vaxtımızı almazdılar. Rusiya və Avropa İttifaqı əsas beynəlxalq oyunçulardandır. Onların görəcəyi çox iş var, çox geniş gündəlikləri var. Əgər onlar bu məsələni müzakirə etmək məqsədilə Azərbaycan və Ermənistan liderləri ilə görüşmək üçün bir dəfə deyil, mütəmadi olaraq vaxt sərf edib səy göstərirlərsə, bu, o deməkdir ki, onların əsl istəyi kömək etməkdir və biz bunu qiymətləndiririk. Biz burada hər hansı rəqabət görmürük, baxmayaraq, bəziləri düşünə bilər ki, bu, bir növ rəqabətdir, qətiyyən belə deyil. Bizə gəlincə, görürük ki, bu səylər bir-birini tamamlayır, bu səylər sülh prosesini dəstəkləyə bilər. Mən onu da bilirəm ki, Prezident Putin və Prezident Mişel arasında təmaslar olub, onlar Azərbaycanla Ermənistan arasındakı münasibətlər də daxil olmaqla, bir çox məsələləri müzakirə ediblər. Düşünürəm ki, uzunmüddətli sülhdə maraqlı olan beynəlxalq ictimaiyyətin, təsisatların, ölkələrin bu səyləri



> "Biz sabitlik, proqnozlaşdırma və Ermənistan tərəfindən istənilən revanşizm cəhdləri riskinin sıfır səviyyədə olmasını istəyirik"

çox müsbət nəticə verə bilər. Çünki uzun illər davam edən işğaldan və düşmənçilikdən sonra beynəlxalq oyunçular prosesə birmənalı şəkildə dəstək nümayiş etdirmədirlər. Əgər Ermənistan sülh sazişinin hazırlanmasında bizimlə əməkdaşlıq etməyə razılaşsa, sözsüz ki, fəsilləri, əsas prinsipləri formalaşdırmaq və həll tapmaq üçün bizim beynəlxalq təcrübəyə, beynəlxalq tərəfdaşlara ehtiyacımız olacaq. Beləliklə, mənim gözləntilərim bununla əlaqədardır. Sözsüz ki, hər şey bugünkü üçtərəfli görüşün necə keçməyindən asılı olacaq. Lakin bizim mövqeyimiz aydındır. Biz buraya müsbət dinamikanı gücləndirməyə gəlmişik.

***-Beynəlxalq Ədalət Məhkəməsinin sonuncu bəyannaməsi Sizin hökumətinizdən, - mən olduğu kimi oxuyuram, - erməni milli və ya etnik mənşəyini hədəfə alan irqi nifrət və diskriminasiyanın təhriki və təbliğinin qarşısını almaq, 2020-ci il münaqişəsi ilə əlaqədar əsir götürülmüş və saxlanılan bütün şəxsləri zorakılıq və bədən xəsarətlərindən qorumaq və onların təhlükəsizliyini və qanun qarşısında bərabərliyini təmin etmək üçün lazımi tədbirlər görməyi xahiş edib. Mən Sizdən soruşmaq istərdim, vəziyyətlə bağlı bu istiqamətdə hansı addımlar atılıb?***

-İlk növbədə, mən demək istərdim ki, beynəlxalq məhkəmə, həmçinin bizim Ermənistana qarşı işimizlə bağlı ilkin rəyini açıqlayıb. Mən deyərdim ki, indiyədək bu qurumun qəbul etdiyi qərar balanslaşdırılmışdır. Əgər siz Ermənistana verilən tövsiyəni oxusanız, yəqin ki, daha dəqiq və daha israrlı ifadələr görəcəksiniz. Bizə gəlincə, Azərbaycanda dövlət siyasətimiz münasibətlərin normallaşdırılması məqsədi daşıyır. Ona görə də, bu, bizim mövqeyimizdir və mən bunu açıq şəkildə bəyan edirəm.

İctimai rəyə gəlincə, başa düşmək lazımdır ki, demək olar, 30 il ərzində Ermənistan işğal olunmuş ərazilərdə Azərbaycan mədəni irsinə qarşı soyqırımı törədib. Bizim şəhər və kəndlərimiz yerlə-yeksan edilib. Avropa və dünyanın digər yerlərindən olan jurnalistlər də daxil olmaqla, minlərlə ziyarətçi onların bizim tarixi abidələrimizə, şəhər və kəndlərimizə etdiklərini öz gözləri ilə görüblər. Ağdam mövcud deyil, Füzuli mövcud deyil, tamamilə yerlə-yeksan edilib və bunlar - bütün binaların qəsdən dağıdılması və dini abidələrimizin məhvi Birinci Qarabağ müharibəsi zamanı deyil, işğal dövründə törədilib. 67 məsciddən 65-i tamamilə dağıdılıb. Yerdə qalan 2 məsciddə onlar azərbaycanlıların heysiyyətini təhqir etmək üçün donuz və inək saxlayıblar. Ona görə də, təbiidir ki, Azərbaycanda çox sayda insan, xüsusilə əzizlərini itirən, ərazilərini itirən insanların Ermənistana qarşı mənfi hissləri var. Bu, təbiidir. Mən "xeyr, müharibə başa çatıb, indi gəlin dost olaq" desəydim, bu, səhv olardı. Bu, vaxt aparacaq. Lakin məsələ dövlət siyasətindədir. Mən artıq dəfələrlə demişəm ki, tariximizdəki bütün bu faciəvi hadisələrə, dağıntılara, Xocalıdakı soyqırımına baxmayaraq, biz səhifəni çevirməliyik. Əgər gələcəyə baxmaq, sabit vəziyyət yaratmaq, yeni müharibə riskini tamamilə minimuma endirmək istəyiriksə, səhifəni çevirməliyik. Bizim siyasətimiz budur. Saxlanılan şəxslərə gəlincə, İkinci Qarabağ müharibəsi başa çatandan sonra Azərbaycan Ermənistandan qabaq bütün hərbi əsirləri azad etdi. Beynəlxalq müşahidəçilər bunu sübut edə bilərlər. Hazırda saxlanılan şəxslər hərbi əsir hesab edilə bilməzlər, çünki onların əksəriyyəti noyabrın sonunda, müharibə başa çatandan demək olar ki, 20 gün sonra işğaldan azad edilmiş ərazilərə terror aktları törətmək üçün göndəriliblər. Onlar bu terror aktlarını törədiblər, nəticədə bir neçə hərbçi və mülki şəxs həlak olub və onlar saxlanılaraq məsuliyyətə cəlb ediliblər. Onların bəziləri humanitar məqsədlərlə azad ediliblər. İndiyədək biz 100-dən çox saxlanılan şəxsi azad etmişik. Cinayət törədənlər isə mühakimə olunublar. Beləliklə, bu insanlar heç bir beynəlxalq konvensiya ilə hərbi əsir hesab edilə bilməzlər. Digər məsələ ondan ibarətdir ki, saxlanılan şəxslərin bəziləri, biz onları geri qaytarandan sonra, - onlardan 10-unu 10 gün əvvəl qaytarmışıq, - Ermənistanda həbs olunub. Bu, bizə, bu insanlara, onların qohumlarına çox ciddi bir siqnaldır. Biz onları Ermənistana qaytarmışıq, onlar isə həbs ediblər. Ola bilsin ki, onlar bu şəxslərə işgəncə verəcəklər. Onların çox sərt təcrübəsi var, çünki bizim əsirlərin Ermənistan həbsxanasındakı dəhşətli vaxtlar barədə danışdıqları onu göstərir ki, bu insanlar çox ağır işgəncələrə məruz qalacaqlar. Ona görə də, əgər biz daha çox adam qaytarsaq, onlar həbs olunacaqlar. Bu, real faktdır və bunu təsdiq etmək olar.

Ardı Səh. 4

# “Biz sülh istəyirik, yetərincə müharibə oldu”

## Prezident İlham Əliyev İspaniyanın "El Pais" qəzetinə müsahibə verib

Əvvəli-Səh-3

***-İcazə verin, hərbi əsirlərlə bağlı bir daha soruşum, çünki təkcə Ermənistan tərəfindən deyil, beynəlxalq təşkilatlar tərəfindən də birbaşa iddialar var ki, saxlanılan onlarla insan var, heç kim əsl sayını bilmir. Bu yaxınlarda hərbi əsirlər sizin ərazilərinizdəki mina xəritələrinin təqdim edilməsi müqabilində dəyişdirilib. Mən bilmək istərdim, bu şəxslərin siyahısı varmı və Siz saxlanılan həmin şəxslərin siyahısını paylaşmağa hazırsınızmı? Siz iddia edirsiniz ki, onlar terrorçudurlar, digər tərəf iddia edir ki, onlar hərbi əsirdirlər. Bizim adlar və sayın göstərildiyi siyahını əldə etmək imkanımız varmı?***

-Burada heç bir sirr yoxdur. Siyahı bəllidir, beynəlxalq təşkilatlar və ermənilər də bundan xəbərdardır. Məsələn, noyabr ayının ortalarında hərbi təxribat həyata keçirərkən 30-dan artıq erməni hərbçisi saxlanılıb. Onların biri yaralı idi və bizim həkimlər onun qeydinə qaldılar, o, əməliyyat olundu və sağalan kimi biz onu geri qaytardıq. Bu, həqiqətdir və təsdiqini tapmış məsələdir. Həmin qrupa daxil olan daha 10 nəfər də geri qaytarılıb və onların bir çoxu artıq Ermənistanda həbsdədir. Beləliklə, Ermənistanın noyabrdakı hərbi təxribatı nəticəsində təqribən 30, ötən ilin noyabrından bəri isə 40-a yaxın hərbçisi əsir düşüb və biz bu rəqəmləri gizlətmirik. Ermənistan tərəfinə əsirlərin ad, soyad və təvəllüdləri ilə bağlı siyahı təqdim edilib. Yəni, onların bundan xəbəri var, beynəlxalq təşkilatların məlumatı var, biz bunu gizlətmirik, çünki burada sirr yoxdur. Eyni zamanda, məhkəmələrin qərarları ictimaiyyətə açıqdır və hər kəs əsirlərin sayını bilir. Lakin yenə də deyirəm, bu, ədalət mühakiməsi məsələsidir. O şəxslər ki, cinayət törətməyib, azərbaycanlıları qətlə yetirməyib, onlar geri qaytarılıb. Artıq qeyd etdiyim kimi, belə şəxslərin sayı 100-dən çoxdur. Məndə olan məlumata görə, xırda cinayətlər törədənlər yüngül cəzalar alıb. Ancaq azərbaycanlıların qətlində əli olanlar məhkəmə qarşısında cavab verməlidir və bu, istənilən ölkədə belədir. Bir daha deyirəm, bu şəxslər İkinci Qarabağ müharibəsinin başa çatmasından 20 gün sonra saxlanılıb. Onlar azad olunmuş ərazilərə noyabrın 26-da göndərilib və ötən il dekabr ayının əvvəlində saxlanılıblar. Növbəti qrup isə qeyd etdiyim kimi, bu ilin noyabrında saxlanılıb. Burada mənzərə tamamilə şəffafdır.

***-Həmin şəxslərin hərbi əsir kimi qiymətləndirilməsi və hərbi əməliyyatların dayandırılması razılığına əsasən, Ermənistan tərəfinə qaytarılması ehtimalı varmı?***

-Dediyim kimi, onlardan 10 nəfəri on gün bundan əvvəl qaytarılıb. Proses humanitar əsaslarda davam edir. Biz heç vaxt "yox" deməmişik, ancaq proses Azərbaycan qanunvericiliyi çərçivəsində, ədalət və humanizm üzərində qurulmalıdır. Bu amillərin vəhdəti mövcuddur, proses gedir, onun davam edəcəyini istisna etmirik. Burada nəyin nə vaxt baş verəcəyini deyə bilmərəm, ancaq proses gedəcək.

***-Təbii qaz məsələsinə toxunmaq istəyirəm. Bildiyiniz kimi, son vaxtlarda Avropa İttifaqının qaz ehtiyatları azalmaqdadır, qazın qiyməti isə artır. Bizim üçün ən əsas qaz təchizatçısı idxalımızın 40 faizinin payına düşdüyü Rusiya ilə münasibətlərdə gərginlik var. Münasibətlər özünün ən pis dövrünü yaşayır. Azərbaycanın iqtisadiyyatı neft və qaz ixracına əsaslanır, ixrac bazarları isə Aİ və Qərbdir. Siz hazırkı vəziyyəti necə təhlil edərdiniz, Aİ və ümumilikdə region hazırkı böhranın öhdəsindən necə gələ bilər?***

-Əvvəla, demək istəyirəm ki, biz iqtisadiyyatımızın şaxələndirilməsi, neft və qaz sahəsindən asılılığın azaldılması üzərində fəal çalışırıq. Bizim ümumi daxili məhsulumuzun strukturuna nəzər salsanız, neft və qaz amili 50 faizdən aşağıdır. İxraca gəldikdə isə əlbəttə, bu, bizim əsas ixracımızdır və təbii qaza gəldikdə, bu ixrac artmaqdadır. Hazırda qazın qiyməti ilə bağlı, necə deyərlər, böhranın səbəbi mənə məlum deyil və səmimi desəm, bu, məni maraqlandırmır. Biz isə öz növbəmizdə ev tapşırığımızı yerinə yetirirdik, neft və qaz sektoruna milyardlarla ölçülən sərmayə cəlb edirdik və XXI əsrin ən mühüm infrastruktur layihələrindən olan Cənub Qaz Dəhlizi üzərində çalışırdıq. Həmin layihə ötən ilin son günündə başa çatdırılmışdır. Layihənin dördüncü seqmenti - Transadriatik qaz kəməri 2020-ci il dekabrın 31-də istismara verildi və həmin vaxtdan bizim Avropaya ixracımız başladı. Bundan əvvəl bizim ixrac bazarımız əsasən Türkiyə və Gürcüstan idi. Beləliklə, bizim qazımızı yeni alan ən böyük istehlakçı İtaliyadır, sonra isə Yunanıstan və Bolqarıstandır. Burada coğrafiyanı genişləndirmək üçün potensial mövcuddur. Bu il artıq biz Avropa İttifaqına 7 milyard kubmetrdən çox təbii qaz ixrac etmişik. Gələn il biz 9 milyard kubmetr, 2023-cü ildə isə 11 milyard kubmetr qaz ixrac etməyi planlaşdırırıq. Bu rəqəm arta da bilər, ancaq bilirsiniz ki, qaz bazarı neft bazarından fərqlidir. Burada müqavilələr əvvəlcədən bağlanmalıdır. Hazırda ixrac etdiyimiz qaz həcmlərinə dair müqavilələr boru kəmərinin istifadəyə verilməsindən öncə bağlanıb. Qaz sahəsində biznes bu şəkildə aparılır. Beləliklə, hasilatı artırmaq və ya Avropa İttifaqının yeni üzvləri ilə əməkdaşlığı planlaşdırmaq üçün praktiki səviyyədə danışıqlar aparılmalı, həmin bazarın potensialı və Avropada qaz infrastrukturu sistemlərinin bağlılığı qiymətləndirilməlidir. Bilirəm ki, hazırda Avropada yeni bağlantılar üzərində iş gedir. Yəni, bunu planlaşdırmaq lazımdır, çünki bizim qazımız uzunmüddətli müqavilələr əsasında satılır və biz müqavilələri 100 faiz yerinə yetiririk. Azərbaycan Avropa İttifaqı üçün etibarlı tərəfdaşdır və əlbəttə, bu mövzu daim bizim gündəlikdədir. Mənim qiymətləndirməm ondan ibarətdir ki, bizim nəhəng təbii qaz ehtiyatımız var. Biz Avropaya təbii qazın ənənəvi təchizat marşrutlarından daha qısa marşruta malikik və bizim mənbə Avropa bazarı üçün yenidir. Siz artıq qeyd etdiniz, Avropa İttifaqı və Avropa İttifaqına üzv olmayan bəzi ölkələrdə hasilatın səviyyəsi azalır və hamımız bilirik ki, bəzi dövlətlərin enerji strategiyasına dair qərarlarından irəli gələrək Avropanın təbii qaza ehtiyacı artacaq. Azərbaycan Avropanın etibarlı tərəfdaşı və dostudur. Təsəvvür edin, Azərbaycan Bakıdan İtaliyaya qədər uzanan, bir hissəsi dənizin dibi ilə gedən 3500 kilometrlik boru xəttini inşa edib. Yəni, hər şey hazırdır və qaz idxal olunur. Burada görüləcək iş Avropa Komissiyası və bizdən daha artıq həcmdə qaz almaq istəyən və ya yeni həcmdə qaz idxal etmək arzusunda olan ölkələrlə təmas qurmaq və danışıqlara başlamaqdan ibarətdir.

***-Ötən il həyata keçirdiyiniz yeni qaz dəhlizi - TAP layihəsinə cənab Putin ilə söhbətlərinizdə toxunulubmu? Bu, Rusiya qazına alternativ olduğu üçün cənab Putini narahat edən məsələdirmi?***

-Xeyr. İl ərzində müntəzəm olaraq görüşməyimizə və tez-tez telefon söhbəti aparmağımıza baxmayaraq, səmimi desəm, biz heç vaxt Prezident Putinlə bu məsələni müzakirə etməmişik. O, bu məsələni heç vaxt qaldırmayıb, çünki zənnimcə, bu rəqabət məsələsi böyük mənada şişirdilib. Bizim təchiz etdiyimiz qazın həcmi Rusiyanın təchizatı ilə müqayisə edilə bilməz. Rusiyanın Avropaya ixracı 100 milyardlarla kubmetr təşkil edir və bu rəqəm artmaqdadır. Bizim Avropaya ixracımız dediyim kimi, rəqabət təşkil etmir və biz heç vaxt buna rəqabət kimi baxmamışıq. Bizim üçün bu, bir kommersiya layihəsi idi. Bu gün bütün boru kəmərləri və infrastruktur hazır olduğu üçün Avropa və digər ölkələrə qaz təchizatının əsas mənbəyi olan "Şahdəniz" yatağının daxili gəlirlilik dərəcəsi artıb. Yəni, o, kommersiya baxımından çox cəlbedici olub. Biz nəhəng qaz ehtiyatlarına malikik və bizim bazara ehtiyacımız var idi. Bizim üçün bazar hara ola bilərdi? Bu, Rusiya ola bilməzdi, çünki Rusiya özü ixracatçıdır. Bu, Gürcüstan da ola bilməzdi, çünki onun qaza olan ehtiyacı nisbətən azdır. Bu, Türkiyə ola bilərdi və oradan isə Avropa. Biz məhz belə də etdik. Türkiyəyə ixrac 2006-cı ildə başlandı. Həcm getdikcə artırdı və daha sonra Avropaya ixrac başlandı. Yəni, bizim üçün bu, bir kommersiya layihəsi idi, lakin onu siyasiləşdirdilər. Təəssüf ki, böyük mənada bunun heç bir mənası yox idi. Rusiya Federasiyası və onun rəhbərliyi məsələnin əsl mahiyyətini anlayır. Bizim qazımız heç bir halda alternativ deyil. Bu, yalnız istehlakçıların ehtiyacı olduğu əlavə həcmdir. Məsələn, bu gün bizim qazımız Türkiyənin ehtiyacının 20 faizini və Gürcüstanın ehtiyacının təqribən 90 faizini təmin edir. Qazımız artıq Avropaya nəql edildiyindən biz Avropa İttifaqının bəzi üzv ölkələrinin ehtiyaclarının əhəmiyyətli hissəsini təmin edəcəyik.

***-Sonuncu sualım dronlar haqqındadır. Ermənistanla müharibədə Sizdə dronların olması çox mühüm əhəmiyyət təşkil edirdi. Bu haqda düşüncələrinizi bilmək istərdim. Səhv etmirəmsə, Sizdə İsrail və Türkiyə texnologiyası əsasında hazırlanmış dronlar var. Bilmək istəyirəm ki, bu dronlar indi dünya satışına çıxarılacaqmı? Onları müstəqil şəkildə istehsal etmək və dünyaya satmaq imkanınız var. Dünya bunda maraqlıdırmı? Ümumiyyətlə, bu, müasir müharibəni və dronların müasir müharibələrin zəruri bir elementinə necə çevrilməsini əks etdirir.***

-Bəli, bu, beynəlxalq hərbi mütəxəssislərin ümumi dəyərləndirməsidir ki, Azərbaycan XXI əsrin müharibəsini apardı. Bizdən əvvəl heç kim müharibəni bu cür aparmayıb. Təkcə dronlar deyildi, çox dəqiq kəşfiyyat var idi. Qeyd etdiyiniz kimi, hər iki ölkədən - Türkiyə və İsraildən olan dronlar inteqrasiya olunmuşdu. Bizdə olan İsrail dronları kəşfiyyat dronları və kamikadze dronları idi, Türkiyə dronları kəşfiyyat dronları və qırıcı dronlar idi. Bunları bir hərbi əməliyyatda birləşdirmək asan deyildi. Eyni sözü bizim hava hücumundan müdafiə sistemi barədə demək olar. Bizdə İsrailin hava hücumundan müdafiə sistemi var, Rusiyanın hava hücumundan müdafiə sistemi var - S300. Bizim "BUK" tipli hava hücumundan müdafiə sistemimiz var. Beləliklə, bu hava hücumundan müdafiə sistemlərini birləşdirmək də həmçinin ciddi hədəf idi və hava hücumundan müdafiə sistemlərinin effektiv istifadəsi ilə biz özümüzü böyük faciədən qoruduq. Çünki Ermənistan bizə qarşı ballistik raketlər ataraq yuxuda olan şəhərləri dağıdırdı. Gəncə şəhəri bir neçə dəfə SCUD raketinin hücumuna məruz qaldı. Onlar yaşayış məntəqələrini dağıtmaq üçün hədəfə alırdılar. Onlar "İsgəndər-M" ballistik raketlərindən istifadə etdilər. Bu, sonuncu gün Şuşanı dağıtmaq üçün istifadə olunmuşdu. Bir dənə deyildi. Bu raketlərin çoxu bizim hava hücumundan müdafiə sistemi tərəfindən zərərsizləşdirilmişdi. Beləliklə, hava hücumundan müdafiə sistemi, dronlar, artilleriya. Dronlar artilleriyaya hədəfi göstərirdi. Artıq sirr deyil ki, müharibənin ilk günlərində biz Ermənistanın hava hücumundan müdafiə sistemini aşkar etmək üçün kiçik, yüngül təyyarələrdən istifadə edirdik. Pilot tullanırdı və kənd təsərrüfatı məqsədləri üçün nəzərdə tutulmuş kiçik təyyarə mövqelərə gedirdi, Ermənistanın hava hücumundan müdafiə sistemi bu lazımsız hədəfə hücum etməklə özünü aşkar edirdi. Sonra biz Ermənistanın hava hücumundan müdafiə sistemini məhv edirdik. Bu amillərin birləşməsi, üstəlik, ilk növbədə, öz həyatlarını qurban verən əsgər və zabitlərimizin motivasiyası və cəsarəti. Üç minə yaxın azərbaycanlı öz vətənləri uğrunda həlak oldu. Bütün bu amillər çox çətin coğrafi şəraitdə qələbədə həlledici rol oynadı. Çünki biz dağlara çıxmalı olurduq, elə şəraitdə ki, ermənilər demək olar, 30 il ərzində 6 istehkam xətti qurmuşdular, minalar basdırmışdılar. Yalnız müharibədən sonra bizdə demək olar ki, 200 nəfər minaya düşərək həlak olub və ya yaralanıb. Sözsüz ki, bütün bunlar bizim qələbəmiz üçün təməl yaratdı. Dronlara gəlincə, biz onları almağa davam edirik. Müharibə başa çatandan sonra biz yeni modifikasiyalar almaq üçün yeni müqavilələr imzaladıq və qeyd etdiyiniz kimi, eyni zamanda, biz qırıcı, kamikadze deyil, kəşfiyyat dronları istehsal edirik və bu dronlar bazara çıxarılır. Azərbaycan 30-dan çox ölkəyə öz hərbi məhsullarını ixrac edir və biz artıq əsas ehtiyaclarımızı ödəyən hərbi sənaye kompleksini inkişaf etdirmişik. Biz bunu davam etdiririk, çünki qeyd etdiyim kimi, hələ də erməni revanşizmi təhlükəsi var, hələ də sabitliyin pozulması təhlükəsi var. Beləliklə, biz hər zaman sərhədlərimizi müdafiə etməyə hazır olmalıyıq.

***-Müharibənin nəticəsi Sizin hərbi məhsullara marağınızı artırıbmı?***

-Bəli, əlbəttə ki. Buna və eyni zamanda, bizim təcrübəmizə marağı artırıb. Çünki təcrübəmizi öyrənmək istəyən bir neçə ölkə artıq bizə müraciət edərək bunu necə etdiyimizlə maraqlanıb. Lakin müharibəyə ilk gündən son günədək rəhbərlik edən Ali Baş Komandan olaraq sizə bir daha deyə bilərəm ki, bunu necə etdiyimizi izah etmək çətin olar. Çünki siz bunu hiss etməlisiniz. Çünki biz demək olar ki, 30 il ərzində ermənilərin işğalından, təhqirindən, təkəbbüründən əziyyət çəkirdik. Onlar bütün beynəlxalq təşkilatların sənədlərinə zidd olaraq bizim torpaqlarda oturmuşdular, torpaqlarımızı dağıdırdılar, iddia edirdilər ki, bu torpaq onlara məxsusdur. BMT Təhlükəsizlik Şurası, ATƏT, Avropa Şurası, Avropa Parlamenti - onların hamısı bizi dəstəkləyən qətnamələr qəbul etmişdi, lakin onlar, sadəcə, orada oturmuşdular və bəyan edirdilər ki, həmişəlik orada oturacaqlar. Beləliklə, motivasiya, ruh yüksəkliyi və cəsarət qələbəmizin əsas amili oldu. Bu, milli ləyaqət və qürur məsələsi idi. Baxmayaraq, bir çoxları bizə bunu necə etdiyimizlə bağlı müraciət etsə də, düşünürəm ki, bunu izah etmək üçün uzun illər lazımdır.

-Vaxt ayırıb müsahibə verdiyinizə görə təşəkkür edirəm.

-Təşəkkür edirəm.

-Bugünkü görüşlərinizdə və növbəti günlərdə Sizə uğurlar arzulayıram.

> *"Mən artıq dəfələrlə demişəm ki, tariximizdəki bütün bu faciəvi hadisələrə, dağıntılara, Xocalıdakı soyqırımına baxmayaraq, biz səhifəni çevirməliyik"*

# Azərbaycan və Moldova bir-birinin ərazi bütövlüyünü daim dəstəkləyirlər

*Brüsseldə Azərbaycan Prezidenti İlham Əliyevin Moldova Prezidenti Maya Sandu ilə görüşü olub*





***Dekabrın 15-də Brüsseldə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Moldova Respublikasının Prezidenti xanım Maya Sandu ilə görüşü olub. AZƏRTAC xəbər verir ki, Prezident Maya Sandu dövlətimizin başçısını salamladı: Salam, cənab Prezident.***

Prezident İlham Əliyev: Salam, Sizinlə tanışlığıma şadam.

Prezident Maya Sandu: Sizinlə də şəxsən tanışlığıma şadam.

Prezident İlham Əliyev: Sizi görmək çox xoşdur.

Prezident Maya Sandu: Təşəkkür edirəm.

Prezident İlham Əliyev: Bu, bizim birinci görüşümüzdür. Mən Sizi seçkilərdə qələbə münasibətilə bir daha təbrik etmək və Sizə uğurlar arzulamaq istəyirəm.

Prezident Maya Sandu: Çox sağ olun.

Prezident İlham Əliyev: Ümid edirəm ki, ölkələrimiz arasında münasibətlər müsbət məcrada inkişaf etməyə davam edəcək. Bu baxımdan şəxsi təmaslar çox vacib rol oynayır.

Prezident Maya Sandu: Elədir ki, var. Çox sağ olun, cənab Prezident. Sizə qaz böhranı keçirdiyimiz müddətdə bizə dəstək olduğunuza görə minnətdarlığımı bildirmək istəyirəm. Biz potensial həlləri araşdıra bilərdik. Sonda biz qısamüddətli həll yolunu tapdıq. Lakin biz enerji sektorunda əməkdaşlığımızı müzakirə etmək istəyirik. Əlbəttə ki, biz biznes baxımından əməkdaşlığımızın dərinləşdirilməsi, ticarət mübadiləsi sahəsində əməkdaşlıq üçün imkanları araşdırmaqda həmişə maraqlıyıq. Biz Moldovada biznes mühitinin yaxşılaşdırılmasında çox maraqlıyıq. Biz insanlarımız üçün daha çox iş yerləri yaratmaq istəyirik. Biz xaric investorların cəlb edilməsində və istənilən digər ölkələr kimi yeni bazarların tədqiqində maraqlıyıq. Beləliklə, mən təmasların yaradılması və biznes forumlarını təşkil etməklə biznesmenlərimizə bir-biri ilə ünsiyyət yaratmağa kömək imkanını görürəm ki, hər iki ölkənin vətəndaşlarına kömək edə bilək.

Prezident İlham Əliyev: Bəli, mən Sizinlə razıyam. Hesab edirəm ki, biz hökumətlərarası birgə komissiyanın fəaliyyətini də gücləndirməliyik. Komissiyanın yeni toplantısı keçirilməlidir. Çünki komissiyanın üzvləri demək olar on ildir ki, bir araya gəlmirlər. Bəzi məlumatlara baxdım və gördüm ki, qarşılıqlı ticarətin səviyyəsi çox kiçikdir. Hesab edirəm bunun artırılması üçün potensial var. Lakin bunun üçün Sizin dediyiniz kimi biznes dairələri bir araya gəlməlidir. Komissiyanın toplantısı olsa onlar, həmçinin potensial investisiya imkanları, biznes mühiti haqqında təqdimatlar edə bilərlər ki, biz də qarşılıqlı ticarətin səviyyəsini artıra bilək. Hesab edirəm ki, biz bir-birimizə təklif edə biləcəyimiz çoxlu malları müəyyən edə bilərik. Enerji əməkdaşlığı məsələsində bilirsiniz ki, biz Avropa təsisatları ilə fəal işləyirik, Avropa İttifaqına üzv dövlətlərlə əməkdaşlıq və yeni bazarlara çıxış bizim üçün böyük əhəmiyyət kəsb edir. Buna görə düşünürəm ki, bu məsələ ilə bağlı ümumi zəmini tapacağıq.

X X X

Görüşdə, həmçinin Azərbaycanın və Moldovanın bir-birinin ərazi bütövlüyünü daim dəstəklədiyi qeyd olundu. Beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq, yaxın vaxtlarda hökumətlərarası komissiyanın növbəti iclasının keçirilməsi, iki ölkənin Xarici İşlər nazirlikləri arasında siyasi məsləhətləşmələrin aparılması, enerji, investisiya sahələrində, eyni zamanda, ölkələrimizin biznes dairələri arasında əməkdaşlıq məsələləri müzakirə edildi.

# Ali Radanın deputatı Lyudmila Buymister: “Azərbaycan Ukrayna üçün yaxşı bir örnəkdir”




***Azərbaycan bu gün Ukrayna üçün yaxşı bir örnəkdir. Azərbaycanın necə hərbi gücə sahib olması, ölkənin ərazi bütövlüyünü təmin etməsi, nizamlı cəmiyyət formalaşdırması, beynəlxalq əməkdaşlıq kimi təcrübəsindən yararlanması Ukraynaya ancaq fayda verə bilər. Azərbaycanın bu uğurları Ukrayna tərəfindən araşdırılmalıdır. Bu fikirləri AZƏRTAC-a məxsusi açıqlamasında Ukrayna Ali Radasının deputatı Lyudmila Buymister söyləyib.***

Deputat bildirib ki, Azərbaycan və Ukrayna arasında əməkdaşlıq münasibətləri hər gün inkişaf etməkdədir. Hər iki ölkəni ümumi tarix, ümumi problem birləşdirir. Həmçinin iki ölkənin müzakirə edəcəyi ortaq iqtisadi məsələlər də var. Azərbaycan Ukraynanın alternativ enerji mənbələrindən istifadə ilə bağlı əldə etdiyi təcrübəni öyrənə bilər.

”Ukraynanın Azərbaycanın işğaldan azad etdiyi ərazilərin bərpası və yenidən qurulması prosesində alternativ enerjidən istifadə ilə bağlı məsələlərdə öz yardımını etməsi mümkündür”, - deyə Lyudmila Buymister əlavə edib.

2022-ci ildə Azərbaycan və Ukrayna arasında əməkdaşlığın bütün sahələrdə inkişaf edəcəyinə əminliyini bildirən deputat vurğulayıb ki, ticarət dövriyyəsinin artırılması, birgə iqtisadi layihələrin həyata keçirilməsi üçün mövcud olan potensialdan maksimum istifadə edilməlidir. Bu istiqamətdə birgə iqtisadi forumların keçirilməsi faydalı ola bilər. Azərbaycan və Ukraynada hər iki ölkənin iş adamlarının layihələri üçün əlverişli şərait mövcuddur.

# Ukrayna-Azərbaycan əlaqələri uğurla inkişaf edir

*Azərbaycan Prezidenti İlham Əliyev Brüsseldə Ukrayna Prezidenti Volodimir Zelenski ilə görüşüb*



*Dünən Brüsseldə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Ukrayna Prezidenti Volodimir Zelenski ilə görüşü olub.*



Prezident İlham Əliyev:

- Hörmətli cənab Prezident, Sizi yenidən görməyimə çox şadam.

Sizin Azərbaycana səfərinizi məmnunluqla xatırlayıram. İkitərəfli münasibətlərimizin inkişafı üçün o səfərin çox böyük əhəmiyyəti var idi. Şadam ki, səfərdən sonra bütün verdiyimiz təlimatlar yerinə yetirilir və Ukrayna-Azərbaycan əlaqələri uğurla inkişaf edir. Biz bir çox sahələrdə uğurla əməkdaşlıq edirik. Əlbəttə, çox maraqlıyıq ki, bu əlaqələri daha da genişləndirək.

Əlbəttə ki, şəxsi təmaslar bu məqsədlərə nail olmaq üçün xüsusi şərait yaradır. Əminəm ki, bugünkü görüşümüz də çox məhsuldar və uğurlu olacaq. Bu gün biz Sizinlə birlikdə Şərq Tərəfdaşlığı Zirvə görüşündə iştirak edəcəyik. Bu gün işimiz çoxdur.

Prezident Volodimir Zelenski:

- Doğrudur, işimiz çoxdur. Zati-aliləri cənab Prezident, Sammit çərçivəsində ayrıca bir görüşün keçirilməsinə görə Sizə minnətdarlığımı bildirirəm. Ölkənizin siyasətində bizə davamlı olaraq dəstək olduğunuza, ərazi bütövlüyümüzü və suverenliyimizi dəstəklədiyinizə görə Sizə təşəkkürümü bildirirəm.

İki il bundan əvvəl Azərbaycandakı görüşümüzlə bağlı çox yaxşı xatirələrim var. Azərbaycan çox qonaqpərvər ölkədir. Fürsətdən istifadə edərək Sizi Ukraynaya səfərə dəvət edirəm. Ümid edirdim ki, Siz bizim müstəqilliyimizin 30-cu ildönümündə ölkəmizə səfər edəcəkdiniz, lakin COVID-ə görə bu günlərdə dünyada vəziyyətin çətin olduğunu da başa düşürəm. Lakin müstəqilliyin 30-cu ildönümü bütün il ərzində qeyd olunur - avqust ayından növbəti ilin avqust ayınadək. Buna görə ümid edirəm ki, Siz imkan tapıb Ukraynaya gələcəksiniz və biz Sizin səfərinizi səbirsizliklə gözləyəcəyik.

Söhbət zamanı, həmçinin hökumətlərarası komissiyanın fəaliyyəti qeyd olundu, biznes dairələrinin nümayəndə heyətlərinin qarşılıqlı səfərləri, iqtisadi-ticari əlaqələrin inkişaf etdirilməsi, xüsusilə enerji sahəsində əməkdaşlıq barədə fikir mübadiləsi aparıldı.

# Prezident İlham Əliyevin Brüssel səfəri Türkiyə mediası tərəfindən geniş işıqlandırılıb













***Azərbaycan Prezidenti İlham Əliyevin Avropa İttifaqının Şərq Tərəfdaşlığı Proqramının VI Sammitində iştirak etmək üçün Belçika Krallığının paytaxtı Brüsselə işgüzar səfəri Türkiyənin aparıcı kütləvi informasiya vasitələri tərəfindən geniş işıqlandırılıb.***

AZƏRTAC xəbər verir ki, Türkiyə mediası dekabrın 14-də Azərbaycan Prezidenti İlham Əliyev ilə NATO-nun Baş katibi Yens Stoltenberqin Brüsseldə Alyansın mənzil-qərargahında birgə keçirdikləri mətbuat konfransı, eləcə də Azərbaycan Prezidenti İlham Əliyevin Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel və Ermənistan Respublikasının baş naziri Nikol Paşinyan ilə birgə görüşü və səfərə aid digər mühüm məqamlar barədə ətraflı məlumatlar yayıb.

Anadolu və İHA agentlikləri, "TRT Haber", "Haber Türk", "A Haber", "Haber Global" telekanalları və "Sabah", "Milliyet", "Hurriyet" və sair qəzetlər, habelə digər media quruluşları Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin Brüsseldə Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyan ilə keçirilmiş üçtərəfli görüşün nəticəsinə dair yaydığı bəyanat da daxil olmaqla səfərə aid prosesi geniş şəkildə türkdilli ictimaiyyətə çatdırıblar.

Televiziya kanallarında mövzu ətrafında Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə yenilməz Azərbaycan Ordusunun 44 günlük Vətən müharibəsində qazandığı rəşadətli Qələbənin regionda yaratdığı yeni geosiyasi vəziyyətlə bağlı reportajlar yayılıb. Ekspertlər məlum Brüssel səfərinin təfsilatını şərh etməkdədirlər. Mütəxəssislər birmənalı şəkildə əsaslandırırlar ki, Azərbaycan cəbhədə qazandığı parlaq Qələbəni siyasət meydanında və diplomatik masada da əzmlə qoruyur.




# Brüssel görüşü: Azərbaycanın haqlı mövqeyi beynəlxalq aləmdə dəstəklənir

***İlham Əliyev: "NATO bizim səylərimizi qiymətləndirir və bu gün biz regionun xeyrinə və dünyada təhlükəsizlik üçün birgə səyləri davam etdirməklə bağlı razılığa gəldik"***

Sevindirici haldır ki, bu gün Azərbaycan qalib ölkə kimi dünya dövlətləri tərəfindən qəbul edilməklə yanaşı, həmçinin, beynəlxalq təşkilatlarda fəaliyyəti çox müsbətdir. Bu nailiyyətlər isə Prezident, Ali Baş Komandan İlham Əliyevin böyük sərkərdəlik məharəti, güclü iradəsi və qətiyyəti, nəhayət, diplomatik siyasətinin reallığıdır. Həmçinin, bir çox dövlətlər, beynəlxalq təşkilatlar Ali Baş Komandanımız, Prezident İlham Əliyevin son 17 illik Prezidentlik fəaliyyəti dövründə həyata keçirilən xarici siyasətinin nəticəsidir ki, bu gün Azərbaycan beynəlxalq aləmdə çox böyük hörmətə layiq olan, haqqın, ədalətin, ərazi bütövlüyünün bərpası yolunda, Güclü Orduya, iqtisadi gücə malik olan ölkə kimi tanınır, sözünə etibar olunur. Və bunun nəticəsidir ki, Azərbaycanın dünyadakı dostlarının sayı artmaqdadır. Azərbaycan mühüm beynəlxalq tədbirlərə uğurla ev sahibliyi etməklə bu sahədə geniş təcrübəyə malik bir dövlətdir. Elə dekabrın 14-də Brüsseldə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel və Ermənistan Respublikasının baş naziri Nikol Paşinyan ilə birgə görüşü deyilənlərin göstəricisidir. Görüşdə bir sıra önəmli məsələlər, xüsusilə də, Azərbaycanın işğaldan azad edilmiş ərazilərinin minalardan təmizlənməsi məsələsi gündəliyə gətirilib, Avropa İttifaqının bu istiqamətdə Azərbaycana texniki yardım göstərməyə hazır olduğu bildirilib.

### Yens Stoltenberq: ”Uzun illər ərzində NATO ilə Azərbaycan arasında güclü əməkdaşlıq olub”

”Uzun illər ərzində NATO ilə Azərbaycan arasında güclü əməkdaşlıq olub. Bu gün əməkdaşlıq bir çox sahələri, bacarıqların inkişafından tutmuş enerji təhlükəsizliyinə qədər olan sahələri əhatə edir. Bu gün biz birlikdə daha nələri edə biləcəyimizi müzakirə etdik”. Bu barədə NATO-nun Baş katibi Yens Stoltenberq Alyansın mənzil-qərargahında Prezident İlham Əliyev ilə birgə keçirilən mətbuat konfransında bildirib. Azərbaycanın NATO-nun Əfqanıstandakı sabiq missiyasına mühüm töhfələr verdiyini vurğulayan Yens Stoltenberq deyib: ”Azərbaycan Silahlı Qüvvələri Kabil hava limanında bu yay aparılan təxliyə işləri zamanı təhlükəsizliyin təmin edilməsində mühüm rol oynamışdır. NATO müttəfiqləri bir neçə gün ərzində 120 mindən çox insanın təyyarə ilə çıxarılaraq təhlükəsizliyinə nail olmuşdur. Bütün səyləriniz və dəstəyiniz üçün çox sağ olun”. Baş katib deyib ki, Cənubi Qafqazda təhlükəsizlik və sabitlik bizim hamımız üçün vacibdir: ”Bütün insanların sülh şəraitində gələcəyini təmin etmək üçün biz hər ikisi NATO-nun dəyərli tərəfdaşı olan Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşdırılmasını dəstəkləyirik”. NATO-nun mənzil-qərargahına gəldiyi üçün Prezident İlham Əliyevə təşəkkür edən Yens Stoltenberq NATO və Azərbaycan arasında əməkdaşlığın daha da dərinləşdirilməsi üçün işimizin davam etdirilməsini səbirsizliklə gözlədiyini bildirib.

### Şarl Mişel üçtərəfli görüşlə bağlı bəyanat yaydı

Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel Brüsseldə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyan ilə keçirilmiş üçtərəfli görüşün nəticəsinə dair bəyanat yayıb. Bəyanatda Aİ Şurasının Prezidenti tərəfindən Ermənistan ilə Azərbaycan arasındakı münaqişənin aradan qaldırılmasına, Cənubi Qafqazda sülhün bərqərar olunması üçün Azərbaycanla Ermənistan arasında hərtərəfli sülh müqaviləsinin imzalanmasına çağırış edilib. Bu, o deməkdir ki, Azərbaycanın dediyi kimi, münaqişə artıq keçmişdə qalıb və gələcəyə baxmaq lazımdır.

Aİ Şurasının Prezidenti Şarl Mişelin öz bəyanatında 2020-ci il 10 noyabr, 2021-ci ilin 11 yanvar və 26 noyabr (Soçi) görüşləri və bəyanatlarından irəli gələn öhdəliklərin yerinə yetirilməsinə çağırış edib və bu da, Azərbaycanın mövqeyi ilə üst-üstə düşür. Bəyanatdakı daha bir mühüm məqam odur ki, ilk dəfə olaraq Aİ-nin gündəliyinə itkin düşmüş şəxslər mövzusu salınıb və onların taleyinə aydınlıq gətirilməsinin zəruriliyi qeyd olunub. Bu, olduqca vacibdir, çünki birinci Qarabağ Müharibəsi zamanı Azərbaycan tərəfindən itkin düşmüş 4 mindən artıq şəxsin taleyi hələ də məlum deyil. Bəyanatda humanitar minatəmizləmə səylərinə dəstək ifadə edilir. Bu, o deməkdir ki, Aİ tərəfindən Azərbaycanın mina təmizləmə səylərinə dəstək veriləcək. Münaqişədən əziyyət çəkən insanlara, xüsusilə, reabilitasiya və rekonstruksiya fəaliyyətinə dəstək ifadə olunur. Bu da olduqca müsbət məqamdır, çünki bu, Azərbaycanın azad olunmuş ərazilərdə həyata keçirdiyi reabilitasiya və rekonstruksiya işlərinə Aİ tərəfindən dəstək veriləcəyi deməkdir. Aİ tərəfindən sərhədlərin demarkasiyası və delimitasiyası məsələsində məşvərətçi statusunda dəstək ifadə olunub. Bəyanatda, həmçinin, Cənubi Qafqaz regionunda iqtisadi əməkdaşlığın inkişafına da Aİ-nin dəstəyi ifadə olunur və birgə iqtisadi əməkdaşlıq platformasının yaradılması təklifi irəli sürülür.

Şarl Mişel regionda kommunikasiya infrastrukturunun yaradılmasına, ölkələr arasında uzlaşmanı təmin edən xətlərin açılmasına və inkişaf etdirilməsinə Aİnin dəstəyini ifadə edib. Və hətta Aİ-nin iqtisadi və investisiya resursları vasitəsilə bu layihələri dəstəkləyəcəyi bildirilib. Diqqətə çatdırılıb ki, Avropa İttifaqı Cənubi Qafqaz regionunda iqtisadi əməkdaşlığın inkişafını dəstəkləyir. Eyni zamanda, birgə iqtisadi əməkdaşlıq platformasının yaradılması təklifi irəli sürülür.

Şarl Mişel regionda kommunikasiya infrastrukturunun yaradılmasına, ölkələr arasında əlaqəni təmin edən xətlərin açılmasına və inkişaf etdirilməsinə Aİ-nin dəstəyini ifadə edib. Qurumun hətta iqtisadi və investisiya resursları vasitəsilə bu layihələri dəstəkləyəcəyi də vurğulanıb. Bəyanatda dəmir yolu xəttinin çəkilməsi məsələsinə xüsusi toxunulub. Həmçinin, dəmir yollarında gömrük və sərhəd nəzarətinin qarşılıqlılıq prinsipi əsasında təşkil olunacağı diqqətə çatdırılıb. Qeyd edək ki, bütün bunlar Avropa İttifaqının təşəbbüsü ilə keçirilmiş görüşdə Azərbaycanın haqlı mövqeyinin bir daha təsdiqləndiyini nümayiş etdirir.

### Azərbaycan Prezidenti: ”Ermənistan istənilən düşmənçilik hərəkətlərindən çəkinməlidir”

”Ermənistan istənilən düşmənçilik hərəkətindən, ərazi iddialarından çəkinməli və sülh sazişi üzərində çalışmalıdır”. Bunu Azərbaycan Prezidenti İlham Əliyev İspaniyanın ”El Pais” nəşrinə müsahibəsində deyib. ”İstənilən halda biz qonşuyuq və bizdən heç kim digər planetə uçası deyil. Biz yan-yana yaşamağı öyrənməli, münasibətlərin, o cümlədən insanlar arasında təmasların normallaşması üçün tədricən zəmin hazırlamalıyıq. Biz açıq şəkildə bəyan etmişik ki, buna hazırıq. Ancaq indiyədək heç bir müsbət siqnal gəlməyib”, - dövlət başçısı bildirib. Prezident qeyd edib ki, Ermənistanın müharibədə məğlubiyyəti yüksək gözləntilər və hərbi-siyasi potensialın qeyri-real qiymətləndirilməsi səbəbindən onların cəmiyyətində psixoloji travma yaradıb”.

Bəli, bu gün Brüsseldə NATO-nun Baş katibi Yens Stoltenberq ilə bunu Azərbaycan Prezidenti İlham Əliyevin görüşündə müzakirə olunan mühüm məsələlər bir daha onu göstərir ki, uzun illər ərzində NATO ilə Azərbaycan arasında güclü əməkdaşlıq olub. Bu gün əməkdaşlıq bir çox sahələri, bacarıqların inkişafından tutmuş enerji təhlükəsizliyinə qədər olan sahələri əhatə edir.

### Azərbaycan lideri: ”Zəngəzur dəhlizinin hüquqi rejimi Laçın dəhlizinin eynisi olmalıdır”

”Zəngəzur dəhlizi ilə bağlı demək istərdim ki, regionda bu kommunikasiyaların açılması təklifi ötən il noyabrın 10-da Rusiya Prezidenti, Ermənistanın baş naziri və mənim tərəfimdən imzalanmış üçtərəfli bəyannamədə öz əksini tapıb. Beləliklə, bütün lazımi şəraiti təmin etmək Ermənistan üçün bir növ öhdəlikdir”. Bunu Azərbaycan Prezidenti İlham Əliyev Brüsseldə NATO-nun Baş katibi Yens Stoltenberq ilə görüşündən sonra keçirilən mətbuat konfransında deyib.

”Baxmayaraq ki, bir ildən çox vaxt ərzində irəliləmək asan olmayıb, bu mərhələdə biz Azərbaycandan Ermənistan vasitəsilə Naxçıvan Muxtar Respublikasına dəmir yolu əlaqəsinin tikintisi ilə bağlı razılıq, həmçinin magistral yol inşasına dair razılıq əldə etmişik. Lakin magistral yolun dəqiq marşrutu hələ ki, müəyyən olunmayıb. Bu, gələcək müzakirələrin mövzusudur və biz bunu bu axşam cənab Şarl Mişelin ev sahibliyi edəcəyi üçtərəfli görüşdə mütləq müzakirə edəcəyik”, - dövlət başçısı bildirib. Prezident qeyd edib ki, Zəngəzur dəhlizinin hüquqi rejimi Laçın dəhlizinin eynisi olmalıdır: ”Çünki üçtərəfli Bəyanatda açıq-aydın deyilir ki, Azərbaycan Qarabağla Ermənistan arasında əlaqə üçün təhlükəsizliyi və maneəsiz çıxışı təmin edir və Ermənistan Azərbaycanla Naxçıvan Muxtar Respublikası arasında əlaqələr üçün eyni maneəsiz çıxış və təhlükəsizliyi təmin etməlidir. Beləliklə, bu gün Laçın dəhlizində gömrük yoxdur. Ona görə də, Zəngəzur dəhlizində də gömrük olmamalıdır. Əgər Ermənistan yük və insanlara nəzarət etmək üçün öz gömrük qurumlarından istifadədə israr etsə, onda biz Laçın dəhlizində eynisində israr edəcəyik. Bu, məntiqidir və qərar Ermənistan tərəfindən qəbul edilməlidir. Biz hər iki varianta hazırıq, ya hər ikisində heç bir gömrüyün olmaması, ya da hər ikisində hər iki gömrüyün olması”.

Bir sözlə, Brüssel görüşü bir daha Azərbaycanın haqlı mövqeyi beynəlxalq aləmdə dəstəklədiyini sübut etməklə yanaşı, həm də Azərbaycan-NATO əməkdaşlığı bundan sonra daha da dərinləşəcək. Münasibətlərin perspektivi tərəflər üçün faydaların artıracaq.

***RƏFİQƏ KAMALQIZI***

# İrəvan Brüsseldə Bakının məngənəsindən çıxa bilmədisə...

*Brüsseldə Şərq tərəfdaşlığı sammiti çərçivəsində cərəyan edən hadisələr dünya gündəminin ən çox danışılan mövzularından biri oldu. Bu xüsusda, Azərbaycan Prezidenti İlham Əliyevin NATO-nun mənzil qərargahında keçirilən görüşü və Alyansın Baş katibi Yens Stoltenberqlə çıxış etdiyi brifinqdə hər iki tərəfin irəli sürdükləri fikirləri, o cümlədən, Azərbaycanın NATO əməkdaşlığı çərçivəsində göstərdiyi fəaliyyətinin yüksək şəkildə qiymətləndirilməsi, eləcə də Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişellə baş tutan görüş və görüş sözügedən əsnasında qarşılıqlı etimad və səmimiyyət faktorunun mövcudluğu diqqət mərkəzində idi.*

SİA mövzu ilə bağlı təhlilini təqdim edir:

Söz yox ki, bu görüşlərin təməlində dayanan əsas mövzular Azərbaycanın işğaldan azad edilmiş ərazilərinin minalardan təmizlənməsi məsələsi, Ermənistan-Azərbaycan dövlət sərhədinin delimitasiyası, eləcə də Zəngəzur dəhlizinin açılması ilə bağlı məsələlər idi ki, burada Ermənistanın baş naziri Nikol Paşinyanın da iştirakı, həmçinin mövqeyi diqqət mərkəzinə çevrilmişdi.

Şərtləri İlham Əliyev diktə edir!

Belə ki, münaqişənin başa çatmasından bir ildən çox vaxt ötdüyünə baxmayaraq, Ermənistan rəhbərliyi hazırkı dövrə qədər imzalanma ilə nəticələnmiş bəyanatlardakı öhdəliklərinə əməl etməkdən ciddi-cəhdlə yayınırdı. Əsasən, Zəngəzur dəhlizinin açılması ətrafında müxtəlif manipulyasiyalar və spekulyasiyalar edən Nikol Paşinyanın haqsızlığı, uğursuz inadkarlığı da nəzərlərdən yayınmadığı üçün bu məsələdə Azərbaycanın nümayiş etdirəcəyi mövqeyi hər kəsdə daha çox maraq doğururdu. Daha dəqiq desək, Azərbaycan Prezidenti İlham Əliyevin sözügedən proseslərə qətiyyətli münasibəti və bəyanatları səbirsizliklə gözlənilirdi.

Beləliklə, dövlət başçımız Zəngəzur dəhlizi ilə bağlı ümumi razılığa gəlinməyəcəyi halda, Laçın dəhlizində buraxılış-keçid məntəqələrinin qurulacağı barədə bəyanat səsləndirdi və onun bəyanatı dərhal erməni tərəfində panik reaksiyaya səbəb oldu. Misal üçün, həmin bəyanatdan sonra Ermənistanın baş naziri Nikol Paşinyan Facebook sosial şəbəkəsində iddia etməyə başladı ki, guya Azərbaycan regional kommunikasiyaların açılması məsələsini dalana sıxışdırır. O, Azərbaycanın ölkə başçısının regional kommunikasiyalarını Laçın dəhlizi ilə paralel tutmasını qəbul etmədiyini deyir və Ermənistan üçün qəbulolunmaz olduğunu bildirir. Ancaq erməni baş nazir bir faktı unudub ki, o, müharibədən uduzmuş tərəf kimi çıxıb və şərtləri də o deyil, məhz İlham Əliyev diktə edir!

## Moskva Bakıdan hansı xahişi edib?

Paşinyan Brüsseldəki üçtərəfli görüşü zamanı bu mövzunu dilə gətirəcəyini də bildirirdi. Amma erməni baş nazirinin bu fikirləri elə fikir olaraq qaldı və görüşlər əsnasında Bakının mövqeyi diqqətə alındı, yəni Prezident İlham Əliyevin yüksək diplomatiyası və praqmatikliyi, habelə, qətiyyəti Nikol Paşinyanın fikirlərini, sözün əsl mənasında, alt-üst etdi.



*Paşinyanın Əliyevin qətiyyətli şərtləri qarşısında inadkarlığı onun vəziyyətini daha da kritikləşdirir*

## Bu zaman haqlı olaraq sual yaranır: Bəs prosesi daha aydın tərzdə necə şərh edə bilərik?

Söz yox ki, biz Brüssel görüşündən əvvəl keçirilmiş Soçi görüşünü yenidən yada salmalı və xüsusilə, Rusiya prezidenti Vladimir Putinin Zəngəzur dəhlizi ilə bağlı anonslarını xatırlamalıyıq. Çünki Brüsselə qədər bu mövzunun Putinlə də müzakirə edilməsi faktdır. Hətta açıqlanmasa da, Soçidə Laçın dəhlizi mövzusunun da qaldırıldığını kifayət qədər ehtimal etmək mümkündür. Belə ki, əgər Laçın dəhlizində Azərbaycana məxsus buraxılış-keçid məntəqələri yaradılarsa, bu fakt orada fəaliyyət göstərən Rusiya sülhməramlıları kontingentinin nüfuzuna ciddi xələl vura bilər. Bunu Moskva da yaxşı bilir, dərk edir və..!

Və əgər İrəvan Zəngəzur dəhlizi ilə bağlı inadkarlığını, müqavimətini göstərməyə davam edəcəksə, necə deyərlər, iki ayağını bir başmağa dirəyəcəksə, bu zaman Azərbaycan Prezidentinin inamla, qətiyyətlə Laçında Azərbaycana məxsus sərhəd-buraxılış məntəqələrinin açılması ətrafında səsləndirdiyi bəyanatın dərhal, hər an reallığa çevriləcəyi mümkünlüyünü deyə bilərik. Söz yox ki, bu gün sanksiyalara uğrayan və Moskvaya da hava-su kimi lazım olan, iqtisadiyyatına yalnız müsbət təsirlər göstərəcək Zəngəzur dəhlizi planı realizə olunmayacaqsa, Moskva Bakıdan İrəvanı sıxışdırmaq xahişini edə bilər və çox yəqin ki, edib də...

## Laçın və Zəngəzur dəhlizlərinin bənzərlikləri və ya dəhlizdə Azərbaycana məxsus gömrük-buraxılış məntəqəsinin qurulması şərtə çevrilib

Bu gün Ermənistan yaxşı bilir ki, Laçın dəhlizində Azərbaycan postlarının qurulması Rusiya sülhməramlıları kontingentinin müvəqqəti nəzarətinə verilmiş ərazilərdəki separatçıların sürətlə həmin bölgələri tərk etməsi ilə nəticəsini tapacaq. Bu baxımdan, Moskva da hər halda fəaliyyət müddəti başa çatmamış sülhməramlılarının vaxtından əvvəl Xankəndini tərk etmələrində maraqlı deyil, çünki Kreml yaxşı bilir ki, əks halda onun beynəlxalq reputasiyası, siyasi imici sürətlə enə bilər. Bu isə o deməkdir ki, Zəngəzur dəhlizi Azərbaycanın tələbləri əsasında realizə olunacaq. Yəni Rusiya Ermənistanı küncə sıxışdırmağa nail olub və əks halda, Azərbaycanın bütün vasitələrdən istifadə edərək həmin planı həyata keçirəcəyinə şübhə də yoxdur.

Ancaq biz buradan digər nəticələri də hasil edə bilərik. Laçın və Zəngəzur dəhlizləri həqiqətən də bənzərdirlər. Zəngəzur dəhlizi Ermənistanın mövcud ərazilərindən keçir, Laçın dəhlizi isə Azərbaycanın suveren ərazilərindədir. Ermənistan üzərinə düşən öhdəliyinə əməl edərsə, hər iki dəhlizlərdə nəzarət və təhlükəsizlik mexanizmini Rusiya təmin edəcək. Və əgər Zəngəzur dəhlizində gömrük məntəqələri olmayacaqsa, Laçında da eyni olacaq. Yəni Azərbaycan onun ərazisində yaşayan ermənilər üçün Ermənistandan gələn yüklərə gömrük rüsumları tətbiq etməyəcək, eləcə də Ermənistan Azərbaycanın Zəngəzur dəhlizindən keçən yüklərinə gömrük rüsumları qoymayacaq. Əgər Ermənistan buna razı deyilsə, deməli, Laçın dəhlizində Azərbaycana məxsus gömrük-buraxılış məntəqəsinin qurulması şərtə çevriləcək.

## Paşinyan dəmir yolu barədə danışarkən Laçın dəhlizinin avtomobil yolu olduğunu unudub

Beləliklə, Paşinyanın hələ görüşlərdən əvvəlki bəyanatının sıfır həddində olmasını və görüşdən sonrakı bəyanatının da bu cür olduğunu ifadə edə bilərik. O üçtərəfli görüşdən sonra bildirib ki, Azərbaycan Prezidenti ilə dəmir yolunun işə salınması barədə razılığa gəlinib. Lakin dəmir yolu beynəlxalq hüquq çərçivəsində və gömrük qanunları, qarşılıqlı prinsiplər, ölkələrin suverenliyi və yuridiksiyaları əsasında işləyəcək. Ermənistan dəmir yolu vasitəsi ilə İran İslam Respublikasına və Rusiya Federasiyasına keçmək imkanını əldə edəcək. Paşinyan bu ətrafda tərəflər arasında əlaqələrin davam edilməsi barədə də razılıq əldə olunduğunu bildirib. Ancaq Paşinyan dəmir yolu barədə danışarkən Laçın dəhlizinin avtomobil yolu olduğunu da unudub, buna görə də onun nala-mıxa döyəcləməsi yalnız onun zərərinə işləyən amil kimi qiymətləndirilə bilər.

Beləliklə, əgər Paşinyan həqiqətən də gömrük və s. ətrafında fikirlərini şərh edibsə, deməli, Laçın dəhlizində Azərbaycana məxsus gömrük-buraxılışı məntəqələrinin yaradılması dövlət başçımızın da vurğuladığı kimi reallığa çevrilə bilər. Hər halda, İrəvanın yenə də düşünməyə vaxtı olsa da, artıq bu vaxt da kifayət qədər daralıb və daraldıqca da vəziyyəti çıxılmazlığa doğru inkişaf edir. Əslində, Nikol Paşinyanın Brüsselə bağladığı ümidləri də boşa çıxdı və Bakının məngənəsindən xilas ola bilmədi.

**Rövşən RƏSULOV**

---

# Heydər Əliyev irsinin öyrənilməsi

*Dekabrın 15-də YAP Xətai rayon təşkilatında Bakı Şəhər üzrə Təhsil İdarəsinin təşkilatçılığı ilə Xətai rayonunda yerləşən orta təhsil müəssisələrinin XI sinif şagirdləri üçün "Heydər Əliyev irsinin öyrənilməsi" dərsləri çərçivəsində ilk dərs keçirilib. Tədbir iştirakçıları öncə YAP Xətai rayon təşkilatının foyesində müasir müstəqil Azərbaycan dövlətinin qurucusu ulu öndər Heydər Əliyevin büstü önünə qızıl gül dəstələri düzüblər.*

YAP Xətai rayon təşkilatının akt zalında davam edən tədbirin əvvəlində Dövlət Himni səsləndirilib, ümummilli lider Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda şəhidlik zirvəsinə ucalan Vətən oğullarının əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

YAP Xətai rayon təşkilatının sədri Vüqar Rəhimzadə tədbirin mahiyyətini, mövzunun bütün dövrlər üçün aktuallığını və hər bir Azərbaycan vətəndaşının qarşısında dayanan vəzifə olduğunu önə çəkərək bilbirib ki, bugünkü qüdrətli, güclü, qalib Azərbaycan ulu öndər Heydər Əliyevin şah əsəridir: "Ümummilli Lider 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışı ilə yeni Azərbaycan qurdu. Müstəqilliyimizin bərpasının ilk illərində Azərbaycanın yaşadıqları hər kəsin yaddaşındadır. Bugünkü gənclik o illəri tarix dərsliklərindən və digər vəsaitlərdən öyrənirlər. Ulu öndər Heydər Əliyevin gördüyü işlər Vətəninə, dövlətinə, xalqına nə qədər bağlı olduğunu nümayiş etdirir. O hələ hakimiyyətinin birinci dövründə-1969-1982-ci illərdə Azərbaycanın müstəqil gələcəyini düşünərək biri-birindən önəmli addımlar atmışdır. Bunlar arasında gənclərin keçmiş ittifaqın ən nüfuzlu ali məktəblərində təhsil almağa göndərilməsini, Cəmşid Naxçıvanski adına hərbi liseyin yaradılmasını xüsusi qeyd etmək olar. Ulu öndər Heydər Əliyev sovetlər birliyi dövründə Azərbaycanı qabaqcıl respublikalar sırasına çıxardığı kimi, 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışı ilə müstəqilliyi əbədiləşdirən uğurlu bir yolun başlanğıcını qoydu. 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qaydışından sonra Azərbaycanın qısa müddətdə sabitlik diyarına, qüdrətli iqtisadiyyata malik ölkəyə çevrilməsinə əsas yaratdı."

Daha sonra Milli Məclisin deputatı, Bakı Dövlət Universitetinin kafedra müdiri, professor Kamilə Əliyeva, Xətai Rayon İcra Hakimiyyətinin şöbə müdiri, Aprel döyüşlərinin və ikinci Qarbabağ müharibəsinin iştirakçısı, kapitan Anar Məmmədov, Bakı Şəhəri üzrə Təhsil İdarəsinin müdir müavini, BDU-nin professoru Hüseyn Əsgərov çıxışlarında əsas diqqəti



Azərbaycanın ordu quruculuğu sahəsində qazandığı uğurlara yönəldərək bildiriblər ki, ulu öndər Heydər Əliyevin hakimiyyətinin hər iki dövründə bu sahəyə xüsusi diqqət göstərilib. Cəmşid Naxçıvanski adına liseyin yaradılması Ümummilli Liderin gərgin səylərinin nəticəsidir. Bu gün orduda xidmət edən zabitlərin böyük əksəriyyəti həmin liseyin yetirmələridir. Diskussiya şəklində davam edən tədbirdə şagirdləri maraqlandıran suallar cavablandırılıb.

# Bəhruz Quliyev: “Azərbaycanın adıçəkilən hərbi alyansla əməkdaşlığı dərin köklərə əsaslanır”

*NATO-nun 24 ölkəsi Azərbaycanın neft-qaz sektoruna bağlıdır - Ermənistandan qəti üstünlüyün yeni nümayişi...*



“NATO-nun 20-yə yaxın ölkəsi Azərbaycandan neft idxal edir”. Bunu Prezident İlham Əliyev Belçika Krallığının paytaxtı Brüsseldə NATO-nun Şimali Atlantika Şurasının iclasında çıxışı zamanı deyib.

Dövlət başçısı, həmçinin, Alyansın 4 ölkəsinin, o cümlədən Türkiyənin Azərbaycandan qaz idxal etdiyini və gələcəkdə bu coğrafiyanın genişləndirilməsi imkanlarının olduğunu diqqətə çatdırıb: ”Bu, həmçinin regional sabitlik, təhlükəsizlik üçün mühümdür. Çünki enerji təhlükəsizliyi artıq ölkələrin milli təhlükəsizliyinin bir hissəsidir. Ümumilikdə biz NATO ilə yüksək səviyyəli qarşılıqlı fəaliyyətdə olmaqdan çox şadıq. Biz çox şadıq ki, NATO bizim səylərimizi qiymətləndirir və bu gün biz regionun xeyrinə və dünyada təhlükəsizlik üçün birgə səyləri davam etdirməklə bağlı razılığa gəldik”.

Bütün bunlar Azərbaycanın regionda oynadığı rolun əhəmiyyətinin, Ermənistandan qəti üstünlüyünün göstəricisidir. O baxımdan bunu ekspertlər necə dəyərləndirir?

## “Enerji təhlükəsizliyi artıq ölkələrin milli təhlükəsizliyinin bir hissəsidir”

SİA xəbər verir ki, sözügedən məsələ ilə bağlı fikirlərini ”Bakı-Xəbər”lə bölüşən ”Səs” Media Qrupunun rəhbəri, politoloq Bəhruz Quliyev buna bir neçə aspektdən yanaşdı: ”Prezident İlham Əliyevin Brüssel səfəri kifayət qədər məhsuldarlıqları ilə yadda qaldı və bu məhsuldarlıq ilk növbədə Azərbaycanın Avropa miqyasındakı əhəmiyyətini nümayiş etdirdi. NATO-Azərbaycan münasibətləri yalnız hərbi əməkdaşlıq kontekstində deyil, həmçinin enerji təhlükəsizliyi kontekstində də qurulub. Bu xüsusda Azərbaycanın adıçəkilən hərbi alyansla əməkdaşlığı dərin köklərə əsaslanır. NATO-da Bakının yeri və rolu daim yüksək qiymətləndirilib. Yəni enerji təhlükəsizliyinə qədər də Bakının yeri və rolu daim yüksək qiymətləndirilib. Brüsseldə, NATO-nun mənzil-qərargahında keçirilən toplantıda da iştirak edən dövlət başçımızın diqqətinə çatdırıldı ki, alyans Azərbaycanın Əfqanıstandakı fəaliyyətini yüksək qiymətləndirir, xüsusilə Əfqanıstanda baş vermiş hadisələr zamanı Kabil hava limanının mühafizəsi, on minlərlə əfqanın hava limanı vasitəsilə təxliyyəsi prosesində Azərbaycan sülhməramlılarının fəaliyyətləri ölçüyəgəlməz dərəcədə alqışlanır. Öz işlərinin öhdəsindən yüksək səviyyədə gələn hərbçilərimizin peşəkarlıqları isə sübut edir ki, Azərbaycan daim öz sülhpərvərlik missiyasını icra etməkdə maraqlıdır və hazırdır. Azərbaycan enerji təhlükəsizliyi sahəsində ciddi işlər görməklə yanaşı, enerji təminatçısı kimi də öz töhfəsini verir. Əbəs deyil ki, Azərbaycan NATO-ya üzv olan dörd ölkə üçün etibarlı təbii qaz təchizatçısıdır. Proseslər də onu göstərir ki, bu ölkələrin sayı artacaq. Habelə, Yens Stoltenberq də xatırladıb ki, NATO-nun 20-yə yaxın ölkəsi Azərbaycandan neft idxal edir. Bu, həmçinin regional sabitlik, təhlükəsizlik üçün mühümdür. Çünki enerji təhlükəsizliyi artıq ölkələrin milli təhlükəsizliyinin bir hissəsidir. Bu bəyanat da belə qənaətə gəlməyə zəmin yaradır ki, NATO-nun 24 ölkəsi Azərbaycanın neft-qaz sektoruna bağlıdır. Ölkəmizlə əməkdaşlıq çərçivəsində Bakının hərbi alyansla əlaqələri möhkəmlənmək yüksəlişindədir”.

Politoloq hesab edir ki, bu gün Ukrayna, Gürcüstan kimi Qərb siyasi inteqrasiyalı postsovet ölkələri NATO-ya üzvlük barədə müraciətlər ünvanlayırlar: ”Lakin həmin müraciətlər hələ də sual altında qalır. Yəni daha dəqiq desək, bu ölkələrin NATO ilə sıx əməkdaşlıqlarına baxmayaraq, hərbi alyansda müəyyən tərəddüdlər də qalmaqdadır. Ancaq Azərbaycanla münasibətdə hər şey əksinədir - etimad və münbit yaxınlaşma, eləcə də Bakının roluna verilən yüksək qiymətlər Azərbaycan-NATO əməkdaşlığını sürətləndirməkdədir. Söz yox ki, biz yaxın gələcəkdə proseslər çərçivəsində növbəti yeniliklərin də şahidlərinə çevriləcəyik. İstər enerji təhlükəsizliyi, istər enerji təminatı, istərsə də regional təhlükəsizlik məsələlərində Bakının mövqeyi hər zaman əhəmiyyətli dərəcədə diqqətə alınır. Bundan sonra da alınacaq”.

Politoloq onu da əlavə etdi ki, bütün bunların əsas özəyində, təməlində Prezident İlham Əliyevin qətiyyəti, ali səviyyəli diplomatik addımları dayanır.

# “Ermənistan Azərbaycan və Türkiyə ilə normal münasibətlər qurmaq üçün bir çox iddialarından əl çəkməlidir”

***Publisist Nadiyə Qafarova tanınmış rusiyalı politoloq Oleq Kuznetsovdan xüsusi olaraq AZƏRTAC üçün müsahibə alıb. Müsahibəni təqdim edirik.***

***- Ermənistanda müxtəlif səviyyələrdə - küçə nümayişlərindən tutmuş parlament iclaslarına qədər yerli politoloqların və hökumət dairələrinin nümayəndələrinin dilindən tez-tez Rusiyaya qarşı iddialar səsləndirilir. Sizcə, bu cür rusofob meyillər nə ilə bağlıdır? Bu mənada Rusiya Prezidenti Vladimir Putinin Soçidə keçirilən üçtərəfli görüşdə Azərbaycanda rus dilinə və mədəniyyətinə tükənməz maraq və hörmətin olduğunu vurğulaması heç də təsadüfi görünmür....***

- Ermənistanda rusofobiyanın artması hazırkı erməni cəmiyyətinin son 30 il ərzində Azərbaycan torpaqlarında mövcud olmuş işğalçı rejimə zəmanət kimi Rusiyaya qarşı bəslədiyi xülyaların iflasa uğraması ilə bağlıdır. Ermənistanın xarici siyasət və müdafiə doktrinaları əsasən Rusiyanın Ermənistan uğrunda savaşacağı ümidləri üzərində qurulub. Ermənistanda güman edirdilər ki, Azərbaycan işğal altındakı əraziləri azad etməyə başlayandan dərhal sonra Rusiya qoşunlarını Qarabağa yürüdəcək və Ermənistan ordusu 1992-ci ildə olduğu kimi, Rusiya hərbçilərinin arxasında gizlənəcək. Ermənistanın səsləndirdiyi ”yeni müharibə - yeni ərazilər” prinsipi də məhz buna əsaslanırdı. Ermənistan tərəfi Rusiya hərbçilərinin Ermənistanın öz sərhədlərini Gəncəyə qədər genişləndirəcək zərbə gücünə çevriləcəyinə ümid bəsləyirdi. Uzun illər Ermənistan hakimiyyəti öz əhalisi arasında bu cür təbliğat aparıb, illüziyalar dağılandan sonra erməni cəmiyyəti özünü aldadılmış kimi hiss etdi.

Ermənistanın Azərbaycan ərazilərini işğal etdiyi 30 il ərzində Rusiya Xarici İşlər Nazirliyi dəfələrlə rəsmi olaraq İrəvana işğalın nəticələrinin Rusiya tərəfindən tanınmayacağını və işğalçı rejimin daim davam edə bilməyəcəyini bəyan edib. Mənim fikrimcə, Ermənistan cəmiyyətində anti-Rusiya əhval-ruhiyyəsinin artması məyusluq və ümidlərin iflasa uğramasından irəli gəlir. Bir məqamı da qeyd etmək lazımdır. 2000-ci ildən Ermənistanda milli ideologiya səviyyəsinə yüksəldilmiş və ölkədə hakimiyyəti ələ keçirən ”Qarabağ klanı” - Sarkisyan və Köçəryan rejimi tərəfindən erməni xalqının beyninə yeridilən nasizmin qəhrəmanlaşdırılması siyasəti ilə Rusiya heç zaman barışmayıb. Bu klan Ermənistan iqtisadiyyatını Qarabağda işğalçı rejimin maraqlarına tabe etmişdi. Ona görə də Qarabağın Ermənistan üçün itirilməsi bütün milli illüziyaların itirilməsinə bərabər idi. Təbii ki, ermənilər həmişə olduğu kimi, özlərində heç bir günah görmədilər və yaranmış vəziyyətə görə Rusiyanı günahlandırdılar. Bu cür tendensiyalar Qərbdə erməni diasporunun maliyyə imkanları hesabına və düşmən ölkələrin hərbi kəşfiyyatları hesabına xeyli dərəcədə dəstəklənirdi. Məhz buna görə də biz hazırda Ermənistanda rusofobiyanın artdığını müşahidə edirik.

***- 44 günlük müharibədə Ermənistanın məğlub olmasından sonra Paşinyanı "aciz", "kapitulyant" və "Türkiyənin agenti" adlandırdılar. Sizcə də Ermənistan hökumətinin başçısının hərəkətləri situativliyi ilə səciyyələnir? Müharibədə məğlubiyyətə baxmayaraq, Ermənistan cəmiyyəti baş nazirinə etimadsızlıq göstərmədi, əksinə, onu dəstəklədi? Sizin fikrinizcə, bu, nə ilə bağlıdır?***



- Bu yaxınlarda Ermənistanda keçirilən sosioloji tədqiqatların nəticələri göstərir ki, bu ölkə sakinlərinin 80 faizi revanşizm ideyalarına mənfi yanaşır. Qarabağ erməniləri ilə heç bir əlaqəsi olmayan Ermənistan əhalisinin əsas hissəsi Qarabağı Ermənistan üçün ballast hesab edir. Bu elektorat baş nazir Paşinyanı dəstəkləyir. Ermənistanda keçirilmiş son parlament seçkilərinin nəticələrinə görə, Paşinyanın partiyası parlamentdə səslərin üçdə iki hissəsini qazanıb. Bəzən mənə elə gəlir ki, Paşinyan Qarabağdan canını qurtarmaq üçün cəbhədəki diversiyaları qəsdən törədib... Bununla da o, Ermənistan üçün ballast olan Qarabağdan canını qurtardı və ölkədə ”Qarabağ klanı”nın yox edilməsi üçün ideoloji və siyasi rıçaqlar əldə etdi. Bu klan 20 il ərzində - faktiki olaraq 2000-ci ildən 2020-ci ilədək ölkədə hakimiyyəti ələ keçirmiş və Ermənistan iqtisadiyyatını öz maraqları naminə istismar edirdi. Odur ki, Ermənistan əhalisinin əsas hissəsi müharibədə məğlubiyyətə uğrayan Paşinyandan daha çox Qarabağ klanına nifrət bəsləyir.

***- Cəmi bir neçə gün əvvəl Ermənistanın "İrs" (Nasledie) partiyasının sədri Stepan Səfəryan Türkiyənin Anadolu agentliyinə müsahibəsində bildirib ki, Ermənistan Türkiyə və Azərbaycan ilə münasibətləri normallaşdırmaq üçün birbaşa bu ölkələrlə razılığa gəlməlidir. Sizin buna münasibətiniz necədir?***

- Stepan Səfəryan yeni bir şey kəşf etməyib. Kremlin Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı mövqeyi həmişə rəsmi İrəvanın ikitərəfli qaydada tarixi ziddiyyətləri aradan qaldırmaq üçün Bakı və Ankara ilə razılığa gəlməsindən irəli gəlib. Noyabrın 26-da qəbul edilmiş Soçi bəyanatında aydın şəkildə əks olunub ki, Ermənistan demarkasiya və delimitasiyası məsələsini Azərbaycanla ikitərəfli qaydada həll etməlidir. Rusiya isə sərhəd mübahisəsinin həlli üçün tərəflərə yalnız konsultativ yardım göstərməyə hazırdır. Ona görə də mən Stepan Səfəryanın bəyanatı ilə müharibədən sonrakı Qarabağ münaqişəsinin həlli ilə bağlı üçtərəfli bəyanatlar arasında heç bir ziddiyyət görmürəm. Ermənistan Azərbaycan və Türkiyə ilə normal münasibətlər qurmaq üçün bir çox iddialarından, ambisiyalarından və ideoloji stereotiplərindən əl çəkməlidir. Tərəflərin bir-birinə doğru atacağı addımlar mehriban qonşuluq münasibətlərinin qurulmasına kömək edəcək. Əslində, Səfəryan ölkəsinin Azərbaycan və Türkiyə ilə münasibətlərinin normallaşdırılması üçün təkcə Rusiya deyil, həm də ATƏT-in Minsk qrupu və bütün dünya siyasi elitasının vasitəçiliyindən imtina etməyi təklif edir.

***- Sonuncu sual. Rusiyanın vasitəsi ilə üçtərəfli bəyanatlar imzalanıb. Ermənistan ilə Azərbaycan arasında "Qordi düyünü"nün açılmasını necə təsəvvür edirsiniz: Kreml Ermənistandan demarkasiya, delimitasiya və Zəngəzur dəhlizi məsələlərində daha kompromisli olmağı təkidlə tələb edəcək, yoxsa vəziyyət ləng, uzunmüddətli xarakter alaraq, növbəti döyüşlərə səbəb olacaq?***

- Üçtərəfli bəyanata diqqətlə nəzər salsaq aydın olur ki, Rusiya, Azərbaycan və Ermənistan prezidentləri faktiki olaraq razılaşıblar ki, nizamlanma prosesi ani olmayacaq, situasiya və obyektiv reallıqlara uyğun irəliləyəcək. Düşünürəm ki, tərəflər ziddiyyətlərin planlı şəkildə aradan qaldırılmasına çalışacaqlar və bu barədə razılıq əvvəlcədən əldə edilib. Müharibədən sonrakı tənzimləmə uzunmüddətli xarakter daşıyacaq. Uzun illərdən bəri öz torpaqlarının geri qaytarılmasını gözləyən Azərbaycan xalqı məsələnin tezliklə həll olunmasını istəyir və bu, başadüşüləndir. Lakin Azərbaycan öz Prezidentinin şəxsində bu məsələnin müəyyən vaxt çərçivəsində həll olunmasına razılıq verib. Tərəflərin öz mövqelərini dəqiqləşdirmək və öz ölkələrinin cəmiyyətlərini siyasi məzmunlu yekun sənədlərin qəbuluna hazırlamaq üçün kifayət qədər vaxt var. Güman edirəm ki, Paşinyan özü bu möhləti istəyib. Çünki son 30 il və bəlkə də daha çox müddət ərzində ermənilər ”miatsum” ideologiyasının təsiri altında yaşayıblar. Bu cür düşmənçilik ideologiyanı mehriban qonşuluq ideologiyası əvəzləməlidir.

Paşinyanın hərəkətləri, Səfəryanın bəyanatı göstərir ki, Ermənistan əhalisinin müəyyən faizi bununla razıdır. Rusiya regionda iqtisadi və nəqliyyat əlaqələrinin açılması proseslərinə kömək göstərəcək. Bununla bağlı 2021-ci il 11 yanvar tarixli bəyanata əsasən, üçtərəfli işçi qrup yaradılıb. Üçtərəfli işçi qrupun vəzifələrinin tam həcmdə yerinə yetirilməsi üçün Rusiya Baş nazirinin müavini A.Overçuk maksimum səylər göstərir. Deməli, Kreml Ermənistanı öhdəliklərini yerinə yetirməyə məcbur etmək məqsədilə İrəvana təsir edir.






# Azərbaycan mətbuatı üçün yeni üfüqlər

ANALİTİKA

*Azərbaycan mətbuatı üçün yeni üfüqlər Azərbaycan cəmiyyətinin inkişafına öz töhfəsini verən milli mətbuat tarix boyu maariflənmədə, milli düşüncəsinin formalaşmasında mühüm rol oynayıb. Mətbuat sahəsində yaradılmış ənənələri daha da möhkəmləndirən Prezident İlham Əliyevin xüsusi diqqəti və qayğısı nəticəsində kütləvi informasiya vasitələrinin fəaliyyətində dövrün çağırışlarından irəli gələn yeni keyfiyyət mərhələsi başladı.*

Vətən müharibəsindən sonra ölkəmizdə dövlət-cəmiyyət, dövlət-media, media-cəmiyyət münasibətlərində də yaranmış yeni reallıqlar bu sahənin qanunvericilik bazasının yenilənməsinə də böyük tələbat yaratmışdı. Azərbaycanda 1999-cu ildə qəbul olunmuş və hazırda qüvvədə olan "Kütləvi informasiya vasitələri haqqında" qanun bu günə kimi 79 dəfə dəyişdirilib və müasir çağırışlarla uzlaşmır.

Ölkə başçısı İlham Əliyevin 2021-ci ilin əvvəlində yaratdığı Medianın İnkişafı Agentliyi fəaliyyətə başladıqdan sonra "Media haqqında" yeni qanun layihəsi üzərində hazırlıq işləri aparılıb. Qanun layihəsi jurnalistlərin statusu, ümumiyyətlə, redaksiyaların statusu və bir çox digər məsələləri özündə əks etdirir. Bu vahid jurnalist kartlarının təqdim olunması, ciddi mətbuatla qeyri-ciddi mətbuatın ayırd edilməsi, ümumiyyətlə, jurnalistika fəaliyyətinin dislokasiyasını özündə müəyyən edən sənəddir. "Media haqqında" qanun layihəsi Azərbaycanda indiyədək tətbiq edilməmiş yeniliklərlə zəngindir. Layihə ilk növbədə onlayn medianın hüquqi statusunun tanınması, strukturlaşması barədə təsəvvür yaratması baxımından önəmlidir.

Onlayn media 20 ilə yaxındır ki, Azərbaycanda yaranıb, inkişaf edir və bu gün ölkəmizin media məkanında çox böyük paya malikdir. Amma onun hüquqi tənzimlənməsi tamamlanmamışdı. Yeni qanun layihəsi vahid reyestrin tətbiq edilməsini nəzərdə tutur ki, bu da çox önəmli məqamdır. Ölkədə nə qədər KİV qurumu, nə qədər jurnalist fəaliyyət göstərir və s. bu kimi suallara aydınlıq gətiriləcək. Vahid reyestrin olması ölkədə KİV-lər üçün strateji inkişaf proqramlarının hazırlanmasını da asanlaşdıracaq. Jurnalistlər üçün vahid formalı vəsiqələrin tətbiq edilməsi də müsbət amildir. Vahid formalı kartı əldə edən jurnalistlər qanunla nəzərdə tutulan bir sıra imtiyazlardan faydalanacaqlar. Yeni qanun layihəsi həm də KİV-lərin peşəkarlaşmasını stimullaşdıracaq. Hərbi və fövqəladə vəziyyət hallarında davranış standartları, insanların şəxsi həyatına müdaxilənin yolverilməzliyi, təhqir və böhtanın qarşısının alınması, müəllif hüquqlarının qorunması və sair halların hamısı detallı şəkildə layihədə əksini tapıb. Layihədə nəzərdə tutulan məqamlardan biri də "freelancer" - sərbəst çalışan jurnalistlərin hüquqlarının tanınmasıdır. Bütün bunlar onu deməyə əsas verir ki, "Media haqqında" yeni qanun məhz məsuliyyətli medianın inkişafına təkan verəcək mütərəqqi sənəddir.

**Rövşən RƏSULOV**

# "Moyka"lar niyə içməli sudan istifadə edir?

***"Moykalarda su istifadəsi hədsiz dərəcədə çoxdur və israfçılığa da çox yol verilir. Bunun qarşısı alınmalıdır. Tullantı sulardan istifadə etsələr daha məqsədəuyğun olar. Amma bu, o demək deyil ki, təkcə moykalarda suya israfçılıq olunur". Bu sözləri SİA-ya açıqlamasında qida üzrə baş mütəxəssis Ağa Salamov deyib. Onun sözlərinə görə, bu haqda siqnal verilib: "Demişdik ki, 2030-cu ildə artıq qiyamət saatı tənzimlənib. Bu dünya alimləri tərəfindən araşdırılıb. 2030-cu ildə böyük bir su qıtlığı olacaq. Hətta su üstündə müharibələr də ola bilər. Bu gedişlə belə halların baş verməsi qaçılmazdır. Bunun da başlıca səbəbi dünyada baş verən qlobal istilikdir. Yəni, iqlim dəyişikliyidir. İqlim dəyişikliyi nəticəsində bildiyimiz kimi artıq dənizimiz də geri çəkilib. Xəzər dənizi də quruyur".***



Ağa Salamov sözlərinə belə davam edib: "Müəyyən regionlarımızda da çayların quruması baş verir. Bu da təbii ki, iqlim dəyişikliyi ilə əlaqədardır. Amma bunun bir səbəbi iqlim dəyişikliyidirsə, digər səbəbi də meqapolis həyatın günahıdır. Yəni, meqapolis şəhərlərin çoxalmasıdır. Məsələn, indi heç kim gedib regionda kartof əkmək istəmir. İnsanlar torpağa can verib, torpaqdan can almaq istəmirlər. Hamı şəhərə qaçır, hamı şəhərli olmaq arzusundadır və hamı VİP həyat istəyir. Məsələn, mən indi kulinariya sahəsində ərazi üzrə koordinatoram. Regionda çalışıram. Çox da xoşbəxtəm ki, sakit və təmiz bir bölgədəyəm. Qulağım dinc, ekologiya təmiz, tər-təmiz işləyirəm. Regionda hava təmizdir və əkib becərsinlər. İnsanın ki ayağı torpaqdan üzüldü, o zaman qiyamətin sonudur".

"Meqapolis həyatı ona görə qınayıram ki, bu tipli həyatda dağlar yoxdur, hava təmiz deyil, sıxlıqdır, əsəbdir. Çoxluq olan yerdə də insanlar suya təbii ki, olmazın israfçılıq edəcəklər. Meqapolis həyatda istehlak olunan suyun miqdarı kənd yerindəkindən qat-qat üstündür. Bu həyatda insanlar hər gün suyu həddindən artıq istifadə edirlər".

"Moykalar ona görə israfçılığa daha çox yol açır ki, bütün insanlar Bakıdadır. 10 milyon insanın 6-8 milyonu Bakıdadır. Onların hamısının da, təxmini 5 milyonunun maşını var. Bu 5 milyon maşın da yuyulur. Bu halda içməli suya necə israfçılıq olmasın?!".

***Ayşən Vəli***

# AP agentliyi ABŞ-ı jurnalistləri təqibdə suçlayıb




***Associated Press informasiya agentliyi ABŞ-ın daxili təhlükəsizlik nazirliyindən izahat tələb edib. SİA xəbər verir ki, buna səbəb hökumətin beynəlxalq terrorçuların izləməsi üçün gizli saxlanılan məlumat bazalarından istifadə olunması məqsədi ilə jurnalistlərin fəaliyyətinin araşdırılmasıdır.***

İnformasiya agentliyinin icraçı direktoru Culi Peys öz məktubunda təhlükəsizlik nazirliyindən daxili təhlükəsizlik inspektorunun məruzəsində göstərildiyi kimi, Tramp administrasiyasının iqtidarda olduğu müddətdə jurnalist Marta Mendosun adının sözügedən məlumat bazasında nəyə görə "potensial konfidensial informator" qismində qeydə alınması ilə bağlı izahatın verilməsini tələb edib.

"Bu, federal idarənin öz səlahiyyətlərindən jurnalistlərin əlaqələrini yoxlamaq üçün istifadə etdirmələrinə danılmaz nümunədir. Halbuki baş inspektorun məruzəsində göstərilən fəaliyyət addımları əvvəlki administrasiya zamanı atılıb və bu, adi praktika kimi göstərilib", deyə Peys bildirib.

**Rövşən RƏSULOV**

# Azərbaycanda dönər dəhşəti: yeyək, yoxsa yox - FOTOREPORTAJ

***Dünyanın bütün yerində tez-bazar hazırlanan qidalardan geniş şəkildə istifadə olunduğu kimi, Azərbaycanda da bu kimi hallara az rast gəlinmir. Bunlara nümunə kimi dönər, şaurma və s. qidaların adını çəkmək olar. Belə qidalar insanların sağlamlığına, eyni zamanda, maddi cəhətdən də ziyan verir. Bildiyimiz kimi, paytaxt Bakıda iki gün bundan öncə dönərdən zəhərlənmə hadisəsi baş verib. Bu vəziyyətlə daha da yaxından tanış olmaq üçün SƏS İnformasiya Agentliyi olaraq paytax Bakının müxtəlif yerlərində fəaliyyət göstərən dönərxanalarda sorğu keçirdik.***

İlk olaraq ”Sahil” metrosunun yaxınlığında yerləşən ”Boğaziçi” restoranına yaxınlaşdıq. Restoranın müdiri Asim Aslanovun bizə verdiyi açıqlamaya əsasən, burada hər bir şey xüsusilə də ət məhsulları tam gigiyenik şəkildə hazırlanır: ”Ətlər ”Halal Nemət Min Bərəkət” şirkətindən alınır. Qiymətlər isə bütün insanların cibini düşünərək hazırlanıb”.

Daha sonra ”İstanbul” adlı dönərxanaya yaxınlaşdıq. Dönərxananın müdiri Qəmbər Kaplanın fikirlərini öyrənib, burada satılan dönərlər haqqında məlumat aldıq. Onun fikirlərinə görə, toyuq ətindən hazırlanmış dönər zəhərlənmək riskini daha çox artırır: ”Çünki toyuq əti köhnəldikdə mayonezlə tez reaksiyaya girir. Dönərlərimiz 2 manatdır. 1 porsiyonda 80 qram ətdən istifadə olunur. Qiymətlərimizin münasib olmasına baxmayaraq çox insan narazılıq bildirir. Düşünürəm ki, zəhərlənmənin əsas səbəblərindən biri də köhnəlmiş və mənşəyi bilinməyən ətlərdən istifadə olunmasıdır. Ondan əlavə o bildirib ki, bu gün 1 manata dönər satılırsa və qiymətin bu qədər aşağı olmasına rəğmən üstündə də ayran və yaxud mərci supu verilirsə, əlbəttə ki, zəhərlənmə hadisəsi olacaq”.





Sonra isə ”Ocaq” adlı dönərxanaya üz tutduq. Burada dönər satan Abdulla Beyazitoğlundan açıqlama aldıq. Onun dediklərinə görə o, 10 ilə yaxındır ki, burada fəaliyyət göstərir. Burada hər şeyin gigiyenik olduğunu və bütün müştərilərin 100% onlardan razı qaldığını bildirib. Hər zaman dönər hazırlayarkən birinci özüm yeyirəm daha sonra müştərilərə verirəm deyən satıcı ətlərin müəyyən firmalardan aldığını bildirsə də, bu barədə sertifikatları yox idi.





Azad İstehlakçılar Birliyinin sədri, Qida Təhlükəsizliyi yanında İctimai Şuranın üzvü Eyyub Hüseynov bu haqda SİA-ya öz fikirlərini bildirib: ”Azərbaycanda dönərxanalar uzun illərdir ki, vətəndaşların, xüsusilə də, gənclərdə zəhərlənməyə, mədə-bağırsaq xəstəliklərinin yaranmasına səbəb olur. Ölkədə 15 mindən çox dönərxana fəaliyyət göstərir. Azad İstismar Cəmiyyəti də bu biznesin sağlamlaşdırılması ilə bağlı müəyyən tədbirlər görsə də, heçnə əldə edə bilməmişdi. Daxili İşlər Nazirliyinin Baş Mütəşəkkil Cinayətlərə qarşı Mübarizə İdarəsi dəfələrlə ölkənin müxtəlif yerlərində kəsilən at və eşşək ətlərinin Bakıya daşınması barədə məlumatlar yayıb, ifşa ediblər. Ötən gün baş vermiş zəhərlənmə halı da təsadüfi deyildi. Çünki bu hadisə illərdir ki, davam edir. Biz dönərxanalara getsək, görərik ki, onların çoxunun sertifikatı yoxdur və yaxud olan sertifikatlarda bişirilən dönərin ət ilə əlaqəli deyil. Ölkə də qanuni yollarla dönər hazırlayan iki müəssisə mövcuddur. Bunlardan biri ”Az protein food” digəri isə ”Səhliyalı” şirkətidir. Həmin şirkətlərdə müəyyən apartlar var ki, hansı ki, dönər ətlərini mənfi 40 dərəcədən keçirərək şişə taxır. Bunun nəticəsində də ətdə olan bütün mikroblar ölür və həmin ətdən hazırlanan dönər insanlar üçün tam təhlükəsiz olur.







Dönərxanalarda bu cür şirkətlərdən bir dəfə ət alaraq, sertifikat əldə edirlər. Daha sonra isə həmin müəssisələrdən ət almırlar və yenidən murdar ətlərdən istifadə edirlər. Buna görə də biz sertifikatları elə hazırlamalıyıq ki, alınan sertifikat o bişən dönərə aid olsun. Qida təhlükəsizlik agentliyinin yeni planlarından biri də, ondan ibarətdir, dönərxanaların qarşısında qaynar xətt telefonları olsun. Alıcı da dönər alarkən şübhələndiyi məqamları zəng edib bildirsin”.







Mövzu ilə bağlı şəhər sakinlərinin fikirlərini öyrəndik:

**Şəhər sakini Samirə Əzimova:** ”Müəyyən restoranlar var ki, onlar dönər mövzusunda bir nömrədir. Məhz mən də elə restoranlardan dönər alıb yeyirəm”.

**Şəhər sakini Faiq Yusifov:** ”Gündəlik həyatımda dönərdən çox istifadə edirəm. Mənə görə əsas dönərin keyfiyyətidir. Şəhərdə bir çox yerlər var ki, onların dönərlərini həddsiz dərəcədə çox bəyənirəm”.

**Şəhər sakini Fidan Zeynallı:** ”Çox az hallarda dönər yeyirəm. Ötən günlərdə baş vermiş hadisədən sonra nə yalan deyim dönər qidasından ehtiyat edirəm”.

**Şəhər sakini Haşım Babaoğlu:** ”İlk öncə demək istəyirəm ki, mən dönər və bu kimi küçədə satılan bütün yeməklərin hər birinə qarşıyam. Çünki o yeməklərin hansı ətlərdən hazırlandığı məlum deyil. Bu cür qidalar insanın immunitetinə bir mənalı şəkildə çox pis yönümdə təsir edir. Nə özüm dönər yeyirəm, nə də ailəmin dönər yeməsinə icazə verirəm”.

**Şəhər sakini Nailə Mehdizadə:** ”Əsasən, toyuq dönərinə üstünlük verirəm. Mənim üçün əsas keyfiyyətdir. Dönərin dadı nə qədər yaxşı olarsa, mənim üçün bir o qədər sevindiricidir”.

**Şəhər sakini Rəvan Bağışov:** ”Dönər yeyərkən, əsasən, qiymətinə önəm verirəm. Düşünürəm ki, qiymətin baha olması həmin məhsulun nə dərəcədə yaxşı olmasının göstəricisidir”.

**Şəhər sakini Elnur Həsənov:** ”Bizim ailədə dönəri anam hazırlayır. Ancaq onun hazırladığı dönəri yeyirəm. Bütün insanlara dönər yeməməyi tövsiyə edirəm”.

**Şəhər sakini Esmira Ağayeva:** ”Mən özüm dönər yeməsəm də, övladlarım üçün alıram. Onlara da aldığım zaman həmin dönərxananın təmizliyinə və ətinin keyfiyyətinə çox önəm verirəm”.

**Şəhər sakini Tural Məmmədli:** ”Düşünürəm ki, hər kəs normal qidalara üstünlük verməlidir. Bu qədər xəstəliklərin yayıldığı bir dövrdə çöldə ayaqüstü yeməklərdən istifadə etmək heç də doğru deyil”.

**Şəhər sakini Rima Nəsirova:** ”Dönər çox yeyirəm, lakin bahalı yerlərdən almıram. Qiyməti ucuz olan ancaq keyfiyyətli dönər yerləri var ki, ən çox həmin yerlərdən istifadə edirəm”.

***Banuçiçək Hüseynli***







# Diplomlular kənarda qalıb, kurs bitirənlər müəllim işləyir

***"Diplomlular kənarda qalıb, kurs bitirənlər müəllim işləyir. Bəli, bu fikirlər dəyərli deputat dostumuz professor Anar İsgəndərovun açıqlamasından sonra gündəmə gəldi. Doğrusu, biz hər zaman qeyd edirik ki, bizim ali təhsil müəssisələrinin verdiyi bilik, savad, diplom təəssüf ki, əmək bazarı üçün keçərli olmur. Yəni, adam yüksək balla universitetə qəbul olur, fərqi yoxdur lap elə orta balla qəbul olur və gedib 4 il ali təhsil müəssisəsində təhsil almalıdır. Onun zamanı gedir, pulu gedir, ömrü gedir". Bu sözləri SİA-ya açıqlamasında Təhsil Nazirliyi yanında İctimai Şuranın məsul katibi İlqar Orucov deyib.***



O sözlərinə belə davam edib: "Bu adam universiteti bitirir. Yaxşı da nəticələrlə bitirir. Sonra gəlir o adam müəllimlərin işə qəbul imtahanlarından keçə bilmir. Deməк, ali təhsil müəssisəsinin verdiyi biliklə əmək bazarının şərtlərini təmin edən MİQ imtahanlarının nəticələri üst-üstə düşmür. Təbii ki, mən düşünürəm müəllimlik elə bir peşədir, elə bir sənətdir, elə bir fəaliyyət növüdür ki, bura ən yaxşıları gəlməlidir. Bir çox yanlışlıqların biz bədəlini ödəyirik. Kənddə-kəsəkdə biri danasını, atını, eşşəyini satırdı gəlib bir saxta diplom alırdı. Yəni, uşağı pulla oxuyurdu və yaxud rayonlarda kolleclər var idi. Tutaq ki, Astara rayonunda bir pedaqoji kollec var idi. Bunların verdiyi diplomlar diplom deyildi, savad da savad deyildi. İndi həmin o adamlar məktəblərə doluşublar və onların verdiyi təhsil nədir?! Zamanında adını yaza bilməyən müəllimlər. Siz təsəvvür edirsiniz bu nədir?! Attestatında xarici dil fənnindən qiyməti yoxdur, adam orta məktəbdə xarici dil fənni keçməyib. Amma gəlib orta məktəbdə xarici dil fənnindən müəllim işləyir. Siz bilirsiniz bu cür hallar nə qədərdir?! Mən konkret olaraq nümunə kimi dedim Astara pedaqoji kollecini. Bu cür pedaqoji kolleclər xeyli bölgələrimizdə var idi onların verdiyi dırnaq içində diplomlu müəllimlər yenə də bugün orta məktəblərdə dərs deyirlər. Bir anlıq təsəvvür edin bir binanın fundamenti, bünövrəsi əgər zəifdirsə o binanı inşa etmək olarmı, olmaz".

İlqar Orucov sözlərinə belə davam edib: "İbtidai təhsili verən müəllimə mən düşünürəm ki, qoyulan tələblər daha ciddi olmalıdır. Çünki baza təhsili verir. Amma görün bizim ibtidai sinif müəllimlərinin xeyli hissəsi bu kolleclərin yetirmələridir. Xeyli hissəsi vaxtilə pulla pedaqoji universitetdə təhsil almış müəllimlərdir. Mən Azərbaycan Pedaqoji Universitetində təhsil almışam. Biz oxuyan dövrdə bizim qrupda cəmi iki nəfər pul vermirdi, böyük əksəriyyət pul verirdi. Daha dəqiq desək 5 nəfər pul vermirdi, amma böyük əksəriyyət pul verirdi. İndi həmin adamların böyük əksəriyyəti bugün müəllimdirlər. Zamanında Gəncədə kənd təsərrüfatı institutunu pulla bitirmiş adamlar var ki, bunlar ixtisaslarını dəyişiblər, məktəblərdə biologiya müəllimi kimi işləyirlər. Ona görə Anar müəllimin dediyində böyük həqiqət var. Mən ona qoşuluram".

"Mən Təhsil Nazirliyi Yanında İctimai Şuranın üzvü olarkən Quba rayonunda bir ucqar kənddə oldum (səhv etmirəmsə rayon mərkəzindən otuz kilometr olar). Biz orada dəhşətə gəldik. Kənd məktəbində fizika, kimya, biologiya müəllimi yoxdur. Deməli, məktəb yoxdur. Üç əsas fənn yoxdursa, deməli məktəb yoxdur. Bunu gizlətmək olmaz. Səbəb nədir? O kəndə tutaq ki, qəbulu imtahanının nəticəsi əsasında Bakıdan bir nəfər düşüb. Siz təsəvvür edin bu gedir bir ay işləyir, on gün işləyir və o artıq çıxıb ordan gedir. Məktəb boş qalır".




"Təhsil Nazirliyinin son illərdə ən doğru olmayan işlərindən biri əslində bu müəllimlərin işə qəbulu zamanı regional yanaşmanı səhv götürmələri oldu. Mən çox alqışlayıram. MİQ imtahanı çox şəffaf keçirilir. Müəllimlərin işə qəbulu əslində bu cür də olmalıdır. Çox yaxşı nümunələr ortaya qoyulub. Bir nəfər deyə bilməz ki, "mən MİQ imtahanından hansısa neqativ yollarla keçib müəllim işlədim".Təmizləmə əməliyyatı gedir. Çox saxta diplomlu müəllimlərin məktəblərdən uzaqlaşdırılması prosesi, müəllimlərin attestasiyası və o attestasiyanın nəticələrinə müvafiq olaraq sertifikasiyadan keçməyən müəllimlərin dərs bölgüsünü onlara az yeridilməsi. Gələcəkdə bunlar məktəbdən uzaqlaşdırılacaqlar".

Birinci növbədə müəllimlərin yerləşməsini təmin etmək lazımdır. Biz bu məsələ ilə bağlı neçə dəfə danışmışıq, nə qədər demişik. Bu nəticə də gətirib buna çıxarır ki, o məktəblərdə boş yerlər qalır, uzaq bir məsafədə biri gedir ora düşür, 300 kilometr məsafədə işləyə bilmir, çıxır gəlir məktəb iflic olur. Təsəvvür edin bir məktəbdə fizika fənni tədris olunmursa o məktəb deyil. Üstəlik kimya da, biologiya da tədris olunmur. Yəni, bu kimi məsələlərə düşünürəm ki, çox ciddi yanaşılmalıdır. Adam gedib Amerikada orda-burda oxuya bilər. Bilirsiniz təhsildə millilik məsələsi çox vacibdir. Yəni, bu məsələlərdə Anar müəllimin düşüncəsi doğrudur. Anar müəllimi mən uzun illərdir tanıyıram. Azərbaycanda nümunəvi ziyalılarımızdan biridir. Çox təmiz, pak və saf bir insandır. O bunu dilə gətirirsə deməli burada həqiqət var. Bunu qəribçiliyə salmaq lazım deyil. Bu tənqiddən nəticə çıxarmaq lazımdır. Bunun üzərində düşünmək lazımdır. Mən açığı bilmirəm indi o diplomsuz müəllimlər deyəndə nəyi nəzərdə tutur. Çox güman ki, müəllim diplomu olmayan, gedib ixtisasını dəyişmiş müəllimlərdən söhbət gedir".

"Məktəblərdə boş yerlər var. Müəllim çatışmamazlığı var. Bu məktəbin boş qalmağındansa keçid balını yığa bilməyən adamlara güzəşt edilsin".

***Ayşən Vəli***

EKSPERT Tənqid etdi

# "Brüssel görüşündə gömrük və sərhəd məsələlərində razılığa gəlinib"



"Belçikanın paytaxtı Brüssel şəhərində Avropa İttifaqının Şurasının Prezidenti Şarl Mişelin vasitəçiliyi ilə Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyan arasında keçirilən görüş mühüm əhəmiyyət kəsb edir. Nəzərə almaq lazımdır ki, Soçi görüşünün nəticəsində üçtərəfli işçi qrup səviyyəsində yekun məlumatın paylaşılması gözlənilsə də, bu barədə heç bir xəbər verilmədi və belə anlama gəlir ki, Soçi görüşünün nəticəsi olmadı və yekun imzalanmış bəyanatın müddəaları da icra olunmamış qaldı". Bunu SİA-ya açıqlamasında politoloq İlyas Hüseynov bildirib.

Onun sözlərinə görə, belə olan təqdirdə bütün diqqətlər Brüssel görüşünə yönəlmişdir: "Brüssel görüşündə də həm üçtərəfli müstəvidə də, eləcə ikitərəfli təmaslar vasitəsi ilə Ermənistan və Azərbaycan arasında post münaqişə dövrünün problemləri müzakirə olundu, Azərbaycanın işğaldan azad edilmiş ərazilərinin minalardan təmizlənməsi məsələsində Avropa İttifaqı Azərbaycana texniki yardım göstərməyə hazır olduğunu bildirib. Bu da çox önəmli bir məsələdir. Çünki bölgədəki infrastruktur layihələrinin icra olunması, kənd təsərrüfatına yararlı sahələrin minalardan təmizlənməsi və bizim soydaşlarımızın həmin ərazilərə təhlükəsizlik şəraitində qayıtması baxımından bu istiqamət mühüm amil kimi dəyərləndirilir".

Politoloq onu da bildirdi ki, görüşdə Ermənistan və Azərbaycan arasında dövlət sərhədlərinin delimitasiyası ilə əlaqədar tərəflər müvəqqəti işçi qrupunun yaradılması ilə bağlı razılığa gəliblər: "Bu da çox önəmli seqmenti təşkil edir. Çünki Soçi görüşündə də hər iki tərəf üzərində bir məsuliyyət formalaşdı və Rusiya tərəfi məsləhətçi qismində burada sərhədlərin müəyyənləşdirilməsi istiqamətində yardım göstərməyi öz üzərinə götürüb və belə görünür ki, regionda artıq hər iki tərəf atasında təmaslar qurulması vasitəsi ilə dövlət sərhədlərinin müəyyənləşdirilməsi prosesi gedəcək və xüsusda önəmli məsələlərdən biri də müdafiə nazirləri səviyyəsində birbaşa telefon rabitəsinin qurulması da mühüm amildir və eskalasi riskini minimallaşdırır. Görüşlər əsnasında həm də bir sıra qapalı olan məsələlərə də aydınlıq gətirdi. Bu barədə Ermənistanın KİV-ləri davamlı olaraq məlumatlar tirajlayırdılar və artıq məlum olan məsələ bundan ibarətdir ki, Ermənistan tərəfi öz ərazisindən dəmir yolu xəttinin çəkilməsi ilə bağlı üzərinə düşən öhdəlikləri təsdiq edir və yaxın gələcəkdə dəmir yolu xəttinin çəkilməsi ilə bağlı bütün məsələlərə aydınlıq gətiriləcək, Ermənistan bu işi icra etməyə başlayacaq. Tezliklə Ermənistan tərəfi dəmir yolu xəttinin çəkilişinə start verməsi ilə sülhün dayanıqlığı böyük ölçüdə təmin edilmiş olacaq".

İlyas Hüseynov qeyd edib ki, görüşdə gömrük və sərhəd nəzarət məsələləri qarşılıqlı prinsip əsasında təmin olunacağı barədə razılığa gəlinib və bu barədə də Cənab Prezidentin çıxışı olmuşdur ki, əlavə yoxlanışa cəlb olunmaq gömrük postlarının qurulması, əlavə vaxt itkisi və digər məsələlər aradan qaldırılmalıdır: "Azərbaycanın əsas hissəsi ilə Naxçıvan arasında əlaqə maneəsiz təşkil olunmalıdır və burada yüklərin, karqo keçidlərinin, sərnişinlərin eləcə də avtomobillərin əlavə rüsuma cəlb olunması aradan qaldırılmalıdır. Əgər bu proses tətbiq olunarsa, Azərbaycan adekvat şəkildə bu məsələyə yenidən baxa bilər və Laçın dəhlizi boyunca bu cür postların qurulması da nəzərdən keçirilə bilər. Avtomobil yolu marşurutun müəyyən edilməsi ilə bağlı da müzakirələr davam etdiriləcək. Düşünürəm ki, bu, daha çox işçi qrupu səviyyəsində həyata keçirilən danışıqların predmenti olacaq və bundan sonra üçtərəfli işçi qrupun üzərinə də böyük məsuliyyət düşür ki, avtomobil yollarının keçəcəyi marşrut istiqamətində yekun rəy müəyyənləşsin və Ermənistanın bu yanaşmada da konstruktiv mövqe nümayiş etdirməsi arzu olunandır. Artıq Avropa İttifaqı, eləcə də NATO qismində regionda gedən sülh yaradıcılıq proseslərinə də müəyyən mənada diqqət yetirir və həm NATO-nun baş katibinin və eləcə də Avropa İttifaqı Şurasının sədrinin mövqeyi bundan ibarətdir ki, regionda dayanıqlı sülh müəyyənləşsin və post münaqişə dövrünün bütün yaranan problemləri aradan qaldırılsın".

***Gülyana***

# "Azərbaycan Avropa İttifaqı üçün mühüm və etibarlı tərəfdaşdır"



"Bu tezis hər zaman səsləndirlir ki, "Azərbaycan Avropa İttifaqı üçün mühüm və etibarlı tərəfdaşdır". Məhz bu gün Azərbaycan Prezidentinin apardığı uğurlu siyasi kurs sayəsində ölkəmiz Avropa İttifaqı üçün əhəmiyyətli tərəfdaşa çevrilib, Avropa İttifaqı və quruma üz dövlətlərlə qarşılıqlı faydalı münasibətlər qurub. Bu əlaqələr uzun illər ərzində genişləndirilib və daha da möhkəmləndirilib. Hesab edirəm ki, məhz möhtərəm Prezidentimizin apardığı uğurlu siyasi kurs sayəsində ölkəmiz Avropa İttifaqı üçün əhəmiyyətli tərəfdaşa çevrilib. Elə istər iyulun 18-də Azərbaycan Prezidenti İlham Əliyevlə Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelə birgə keçirilən mətbuat konfransında, istərsə də Azərbaycan Prezidenti İlham Əliyev Brüsselə səfəri çərçivəsində dekabrın 14-də NATO-nun baş katibi Yens Stoltenberqlə görüşündə də Azərbaycan Prezidenti İlham Əliyev bildirib ki, Azərbaycan NATO-nun etibarlı tərəfdaşı olduğunu sübuta yetirib: "Azərbaycan NATO-nun etibarlı tərəfdaşı olduğunu sübuta yetirib. Biz Əfqanıstandakı sülhməramlı missiyamıza 2002-ci ildə başladıq və bu il avqustun sonunda onu bitirdik". Bu fikirləri SİA-ya açıqlamasında Milli Məclisinin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü, millət vəkili Məşhur Məmmədov deyib.

Məşhur Məmmədov Alyansın mənzil-qərargahında NATO-nun Baş katibi Yens Stoltenberq Prezident İlham Əliyev ilə birgə keçirilən mətbuat konfransında NATO ilə Azərbaycan arasında uzun illər ərzində güclü əməkdaşlığın olmasını qeyd etməsi bir daha dövlət başçımızın apardığı uğurlu diplomatik siyasətinin uğurlu nəticəsinə verilən dəyər və NATO ölkələrin Azərbaycanın ərazi bütövlüyünü dəstəkləməsinin göstəricisi olduğunu deyib: "Bunu NATO-nun Baş katibi Yens Stoltenberq Prezident İlham Əliyev ilə birgə keçirilən mətbuat konfransında bir daha qeyd edib ki, Cənubi Qafqazda təhlükəsizlik və sabitlikdə Azərbaycanın münasibətlərin normallaşdırılmasını dəstəklədiyini vurğulaması bir daha NATO və Azərbaycan arasında əməkdaşlığın daha da dərinləşdirilməsinin təsdiqidir".

"Bir sözlə, Azərbaycan Prezidenti İlham Əliyev Brüsselə səfəri çərçivəsində keçirilən görüşün də əvvəlki görüşlərdə olduğu kimi, uğurlu olacağına, Aİ-yə üzv dövlətlərlə münasibətlərin dərinləşməsinə töhfə verəcəyinə əmin olduğunu deyib: "Dövlət başçımızın dediyi kimi: "Ümumilikdə biz NATO ilə yüksək səviyyəli qarşılıqlı fəaliyyətdə olmaqdan çox şadıq. Biz çox şadıq ki, NATO bizim səylərimizi qiymətləndirir və bu gün biz regionun xeyrinə və dünyada təhlükəsizlik üçün birgə səyləri davam etdirməklə bağlı razılığa gəldik". Bizim güclü siyasi təmaslarımız əlbəttə ki, əməkdaşlığımızın şaxələndirilməsi üçün çox yaxşı təməl yaradır və yaradacaq",-deyə millət vəkili Məşhur Məmmədov vurğulayıb.

***RƏFİQƏ HÜSEYNOVA***

# “Erməni səlahiyyətlisi”ndən ermənilərə məsləhət

***...Təəssüf ki, Ermənistan hakimiyyəti artıq daha qismən yox, tam şəkildə Türkiyənin maraqlarına xidmət edir. Nikol Paşinyan, Armen Sarkisyan və digər yüksək rütbəli məmurlar işdən çıxarılıb məsuliyyətə cəlb olunmayana qədər ölkəmizdə bu gün "sürünən türk təcavüzü" sabah daha fəlakətli miqyasda fəaliyyətini davam etdirəcək.***



Qeyd edək ki, bunu ermənilər deyirlər. Onların dediyinə görə, bu gün regionun heç bir ölkəsinə müharibə elan etməyən Türkiyə əgər maneəsiz-filmsız Suriya, İraq, Liviya, Kipr ərazilərinə sərbəst şəkildə qoşun yeridə bilirsə, bu halda Türkiyəni Ermənistana girməkdən kim saxlaya biləcək? Təbii ki, əslində bu qorxudan irəli gələn xof kimi qəbul edilməlidir.

Maraqlıdır ki, hazırda ermənilər ölkədəki "uğursuzluq"ların əsasını qoyan xain axtarışına çıxıblar və... deyəsən belə bir xaini tapıblar da.

Onlar Nikol Paşinyanın ideoloji atası kimi təqdim etdikləri və vaxtilə Levon Ter-Petrosyanın müşaviri olmuş Jirayr Liparityanı "öz millətindən əl çəkib dövləti məhv edən xain bir təbliğatçı" kimi təqdim etməyə başlayıblar.

Xatırladaq ki, Liparityan vaxtilə müşavir olduğu ərəfədə bəzi həmkarlarından fərqli olaraq "qonşularla problemləri həll etməyin vacibliyini" məsləhət görürdü. Hətta o sonralar Ermənistanın Azərbaycan və Türkiyə ilə münasibətlərini normallaşdırmayacağı təqdirdə, millətinə nə vaxtsa çantalarını yığıb buralarda köçməli olacaqlarını da açıq şəkildə bildirirdi.

Hələ o vaxt beynəlxalq ictimaiyyətin rəyinin ermənilər üçün vacib olduğunu deyən Liparityan ermənilərə xatırladırdı ki, əgər sabah biz məğlub olsaq, onlara üz tutub onların artıq bacarmadıqları şeyləri etməsini istəyəcəyik. Belə görünür ki, həmən an gəlib çatıb və təbii ki, indi ermənlərin kimisə "vətən xaini kimi" ittiham etməkdə heç bir əsas görməməlidirlər.

Realıq isə budur: Naxçıvana dəmir yolu və avtomobil yolunun tikintisi ilə bağlı razılıq əldə olunub. Qeyd edək ki, bunu Azərbaycan Prezidenti İlham Əliyev dekabrın 14-də Brüsseldə NATO-nun baş katibi Yens Stoltenberqlə birgə mətbuat konfransı zamanı bəyan edib.

Təbii ki, ermənilər bu reallığı qəbul etmək istəməmələri və hətta bu reallığa qarayaxmalar sərgiləməsi gözlənilən idi. Məsələn, özünü "artsax" səlahiyyətlisi kimi təqdim edən David Babayan iddia edir ki, Azərbaycanın bu istəyinin reallaşması Rusiya və Avropa üçün ciddi problemlərlə dolu olmaqla yanaşı, həm də "artsax" üçün qəbuledilməzdir. Babayana görə, Azərbaycan bu cür hərəkətləri ilə guya "artsax"ı tamamilə boğmağa çalışır. Bundan əlavə, Babayan "əmindir" ki, Azərbaycan təkcə bir dəhlizlə durmayacaq, yeni sabah ikinci və bəlkə də üçüncü bir dəhliz tələb edəcək.

...Bu isə Ermənistanın Zəngəzur üzərindəki suverenliyini itirilməsi deməkdir.

...Ermənistanın İrandan "qopması" deməkdir.

...Və ümumiyyətlə, Ermənistanın öz ərazisinin təxminən üçdə birinə nəzarətini itirməsi deməkdir. Deyim ki, bunları da Babayan deyir.

Onun fikrincə, bunlar isə bölgədəki vəziyyəti kökündən dəyişəcək. Yəni Naxçıvanla Kəlbəcərin əlaqəsi Şərqi Zaqafqaziyanın tam birləşməsi demək olacaq. Bundan əlavə, bu o demək olacaq ki, indiki mənada Ermənistan olmayacaq. Çünki Zəngəzurun arada itib-batması dərin transformasiyalara, Şimali Qafqazda, Volqaboyu və Orta Asiyada gözlənilməz proseslərin başlayacağına gətirib çıxaracaq.

Babayan böyük əminliklə, bütün bu baş verənlərin fonunda ermənilərin bu yerlərdən total şəkildə köç edəcəyini bildirir. Qeyd edək ki, vəziyyətdən çıxış yolu kimi, yeni müharibəni dilə gətirmək istəyən Babayan bunun ermənilərə heç bir uğur gətirməyəcəyini də yaxşı başa düşür.

O da maraqlıdır ki, "erməni səlahiyyətlisi" həmyerlilərinə baş verənlərə sakit yanaşmaq, panikaya düşməmək və Azərbaycanın "təxribatlarını yatırmaq" istiqamətində addımlar atmağı məsləhət görür.

***Ağasəf Babayev***

***Qəhrəman Azərbaycan Ordusu qırx dörd günlük Vətən müharibəsində mənfur düşmən üzərindəki möhtəşəm Qələbəsi ilə Qarabağı işğaldan azad etdi. Respublikamızın ərazi bütövlüyü təmin edildi. Qarabağda azadlıq günəşi doğdu. Dəmir yumruq əməliyyatı ilə düşmənin 30 illik "keçilməz sədlər"i cəmi 44 gündə darmadağın edildi, Ermənistan kapitulyasiya aktına imza atmağa məcbur edildi. Müzəffər Ali Baş Komandanımızın rəhbərliyi ilə rəşadətli ordumuzun Şuşanı azad etməsi xalqımızın Qarabağ yarasına məlhəm oldu.***

# Qara niyyətli ağ yalanlar

İnkaredilməz həqiqətdir ki, İkinci Qarabağ müharibəsində Azərbaycanın hərb meydanında qazandığı tarixi Zəfər diplomatik müstəvidə də üstünlüyümüzü təmin edib. Bir neçə gün bundan əvvəl, noyabrın 26-da Soçi şəhərində Azərbaycan və Rusiya prezidentlərinin, həmçinin Ermənistanın baş nazirinin iştirakı ilə keçirilən üçtərəfli görüş bunu bir daha təsdiq etdi. Orada imzalanan Bəyanatda da məhz ölkəmizin başçısının mövqeyi və irəli sürdüyü, Rusiya Prezidentinin də dəstəklədiyi məsələlər öz əksini tapdı. Əslində Soçi görüşündə imzalanan sənəd prinsip etibarı ilə 2020-ci il 10 noyabr və 2021-ci il 11 yanvar bəyanatlarının məntiqi davamıdır, desək heç də yanılmarıq.

Soçi görüşündən iki gün sonra Türkmənistanın paytaxtı Aşqabad şəhərində keçirilən İqtisadi Əməkdaşlıq Təşkilatının (İƏT) Zirvə Toplantısında çıxış edən Prezident İlham Əliyev regionda yaranmış yeni reallıqları bir daha dəyərləndirdi. Zirvə Görüşündə qəbul edilən yekun Bəyannamədə təşkilata üzv dövlətlərin Azərbaycan xalqı və hökumətinə 30 illik işğala son qoyulması ilə bağlı ünvanlanan təbrik məktubu xüsusilə qeyd edilməlidir. Belə ki, Azərbaycana təbrik ünvanlayan ölkələrdən üçü Ermənistanın da təmsil olunduğu Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının (KTMT) üzvüdür. Bəyannamədən də göründüyü kimi, KTMT üzvləri Azərbaycanın qələbəsini, ərazi bütövlüyünü dəstəkləyirlər. Bu da, əlbəttə ki, Prezidentimizin qətiyyətli və uzaqgörən siyasətinə, diplomatik məharətinə verilən yüksək dəyər, Azərbaycanın beynəlxalq hüququn norma və prinsiplərinə söykənən ədalətli mövqeyinin dəstəklənməsinin parlaq təzahürüdür.

Bütün bunlar Azərbaycanın diplomatik qələbəsi olmaqla yanaşı, həm də tarixi reallıqlardır. Təbii ki, cəmiyyətimiz bütün bu prosesləri yaxından izləyir, ölkəmizin başçısının əldə etdiyi möhtəşəm nailiyyətləri təqdir edir, böyük ruh yüksəkliyi ilə Azərbaycanı qələbədən-qələbəyə aparan Liderini dəstəkləyir, böyük sevinc, hədsiz fərəh, qürur hissləri yaşayır. Danılmaz həqiqətdir ki, bütün qələbələrin təməlində xalqın əzmi, ruh yüksəkliyi dayanır.



Təbii ki, xalqımızın dövlətçiliyimizin ətrafında dəmir yumruq kimi birliyi, ən yüksək formadakı həmrəyliyi erməni lobbisini, məğlub Ermənistanın havadarlarını və onların öz çirkin oyunlarına alət etdikləri "sapı özümüzdən olan baltalar"ı, antimilli ünsürləri narahat edir. Ermənipərəst mərkəzlərin çirkli qrantları müqabilində yalnız iqtidara deyil, dövlətə, dövlətçiliyimizə müxalifətdə olan dağıdıcıların "tənəkə liderlər"indən AXCP sədri Əli Kərimli, onun vassalı, "Milli Şura"nın sədri Cəmil Həsənli, gündə bir siyasi təşkilat dəyişən Gültəkin Hacıbəyli, Müsavat Partiyası ilə AXCP arasında girinc qalan Tofiq Yaqublu və digərləri başlarına beş-on nəfər gədəgüdəni yığaraq gecə-gündüz sosial şəbəkələrdə Azərbaycan əleyhinə qara piar kampaniyası aparırlar. Bu işdə onlar əsas təbliğat ruporu olaraq "siyasi mühacir" adı bəzi Qərb ölkələrində sığınacaq tapan və ayrı-ayrı xarici kəşfiyyat orqanlarının əlaltısına çevrilən Tural Sadıqlı, Qənimət Zahid, Sevinc Osmanqızı, Məhəmməd Mirzəli kimilərdən böyük ustalıqla istifadə edirlər. Sosial şəbəkələrin canına daraşan bu parazitlərin əsas işi öz xarici ağalarının tapşırığı ilə gecə-gündüz qırx dörd günlük Vətən müharibəsindəki tarixi Qələbəmizə, Soçidə və Aşqabadda əldə edilən uğurlarımıza ləkə yaxaraq, şər-böhtan yağdıraraq ictimai rəyi yanlış istiqamətə yönləndirmək və bu yolla xalqımızın milli-mənəvi sərvətinə çevrilən milli birliyimizi sarsıtmaq, cəmiyyəti xaos və anarxiya bataqlığına sürükləməkdən ibarətdir. Qara niyyətlərini ağ yalanlarla süsləyən, "YouTube" və "Facebook"da "Osmanqızı", "Azərbaycan saatı", "Azad söz" kimi internet Tv-lərdə insanlara kini, nifrəti təlqin edən, onları şiddətə və vəhşətə çağırmaqla öz şərəfsizlik avtobioqrafiyalarına hər gün yeni səhifələr yazan, milli mənlik şüurunu, heysiyyatını itirərək bütün dünyada xaos, anarxiya, qarğaşa, aclıq və səfalətin, hər cür pisliyin hakim olması üçün var gücü ilə çalışan dəccalların fitnəsinə uyan bu satqın və mənəviyyatsız zavallılar hələ də anlamırlar ki, heç zaman öz istəklərinə, çirkin niyyətlərinə nail ola bilməyəcəklər. Ona görə də özlərini cəmiyyətdən təcrid edərək marginallaşan bu merkantillər nə qədər ki, gec deyil, tövbə edərək getdikləri yanlış yoldan dönsələr yaxşı olar. Çünki tövbə qapısı həmişə açıqdır. Allah səhvlərindən və günahlarından sonra doğru yola qayıdanların xətalarını bağışlayandır. Bu barədə bir ayədə belə bildirilir: "Bizim ayələrimizə iman edənlərə de: İçinizdən kimsə cahilliyindən pislik edər, sonra tövbə edərək (özünü) islah edərsə şübhəsiz, Allah bağışlayandır, əsirgəyəndir." (Ənam surəsi, 54)

***Zahid Rza***

# Yeni təşəbbüslər ölkəmizin imkanlarını, əzmini və gələcəyə baxışını nümayiş etdirir

## *Dövlət başçısı İlham Əliyevin "İşğaldan azad edilmiş ərazilərdə iqtisadi inkişafın sürətləndirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" Sərəncamı Böyük Qayıdışın yaxınlaşmasından xəbər verir*

***Tarixi Zəfərimizdən bir il keçib. Ötən bir il Azərbaycanın, xüsusilə işğaldan azad edilmiş ərazilərimizin həyatında mühüm hadisələrlə, genişmiqyaslı bərpa və quruculuq işləri ilə yadda qalıb. Zəfərimizdən dərhal sonra dövlət başçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın işğaldan azad edilmiş ərazilərimizə səfərləri, ilk olaraq mənəvi baxımından daha çox önəm daşıyan Zəfər yolunun təməlinin qoyulması bərpa və quruculuq işlərinin sonrakı mərhələsi barədə aydın təsəvvür yaratdı.***

TƏHLİL

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri, Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı Əlaqələndirmə Qərargahının rəhbəri Samir Nuriyevin sədrliyi ilə noyabrın 30-da Qərargahın ötən bir illik fəaliyyətinin yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş növbəti iclasında görülən işlərin xronologiyası açıqlanmışdır. Belə ki, işğaldan azad edilmiş ərazilərin çoxsahəli potensialına uyğun olaraq bölgədə iqtisadi fəaliyyətin qısa zamanda bərpası istiqamətində görülmüş işlərə dair məlumat verilərək qeyd edilmişdir ki, sənaye zonalarının, istehsal obyektlərinin yaradılması və fəaliyyətinin təşkili, həmçinin bölgəyə investisiyaların cəlb edilməsi istiqamətində konkret addımlar atılıb. Ağdam Sənaye Parkının, ”Araz Vadisi İqtisadi Zonası” Sənaye Parkının təməli qoyulub, buraya potensial rezident və investorların cəlb edilməsi istiqamətində sahibkarlarla və dövlət qurumları ilə müvafiq iş aparılıb. Kənd təsərrüfatı sahəsində də mühüm tədbirlər həyata keçirilib. Taxıl əkini məqsədilə artıq on minlərlə hektar ərazidə şumlama işləri aparılıb, bitkiçiliyin, heyvandarlığın, arıçılığın inkişafı üçün prioritet istiqamətlər müəyyən edilib. Hər bir bölgənin inkişafında əsas amil olan infrastukturun bərpasına və yeniləşməsinə gəldikdə isə qeyd etmək olar ki, oktyabrın 26-da istifadəyə verilən Füzuli Beynəlxalq Hava Limanı dünya praktikasında ən sürətli icra edilmiş infrastruktur layihələrindən biridir. Artıq Zəngilan Hava Limanının da uçuş-eniş zolağında ərazi minalardan təmizlənib və tikinti işləri davam edir. Laçın Hava Limanının isə yeri müəyyən edilməklə plan-sxemlər hazırlanıb və hazırda tikinti işlərinə başlanması üçün baza yaradılır. Əvvəldə də qeyd etdiyimiz kimi, ötən ilin noyabrın 16-da təməli qoyulan ”Zəfər Yolu”nun tikintisi müvəffəqiyyətlə başa çatdırılıb və cari il noyabrın 7-də açılışı olub.

Dövlət başçısı İlham Əliyevin işğaldan azad edilmiş ərazilərimizə səfərləri hər zaman yeni obyektlərin açılışı və təməlqoyma mərasimlərinin keçirilməsi ilə yadda qalıb. Xatırlasaq, cənab İlham Əliyevin hər səfərində böyük sevinc hissi ilə qeyd etdiyi məqamlardan biri, bu ərazilərdə günəşin də çıxmasıdır. Sanki hava da bu gəlişdən sevinir. 30 ilə yaxın dövrdə bu ərazilər tamamilə yerlə-yeksan edilmiş, erməni xislətinə uyğun addımlar atılmış, hər tərəf dağıntı içərisində olmuşdur. Tarixi, dini abidələrimizi tamamilə dağıdan, məscidlərimizdə donuz saxlayan ermənilər bu əməlləri ilə 30 il necə vəhşi ilə üz-üzə qaldığımızı dünyaya göstərirlər.

O da məlumdur ki, bütün azad olunmuş ərazilərdə ”ağıllı şəhər”, ”ağıllı kənd” layihələrinin icrası həyata keçirilir. Dövlət başçısı İlham Əliyev strategiyanın hazırlanması ilə bağlı Sərəncam imzalayıb. ”Ağıllı şəhər” və ”ağıllı kənd” layihələrindən bəhs edərkən ”İşğaldan azad olunmuş ərazilərin Ermənistan tərəfindən darmadağın edilməsini nəzərə alsaq, bu, böyük bir çağırışdır” bildirən ölkə Prezidenti bunun öhdəsindən qısa müddətdə gələcəyimizi bildirir.Bu layihələrlə ölkəmizin imkanlarını, əzmini və gələcəyə baxışını nümayiş etdirmək niyyətimizi açıqlayan cənab İlham Əliyev daim bu fikri önə çəkir ki, böyük neft və qaz potensialına sahib, xam neft və neft məhsullarının, təbii qaz və elektrik enerjisi ixracatçısı olan Azərbaycan böyük məsuliyyət nümayiş etdirməli və ”yaşıl enerji”yə fəal şəkildə sərmayə yatırmalıdır. Birinci ”Ağıllı kənd” pilot layihəsi Zəngilanın 1-ci, 2-ci, 3-cü Ağalı kəndlərini əhatə edir. Bu kəndlərdə müasir məktəb, bağça, poliklinika və elektron idarəetmə mərkəzləri inşa olunacaq, turizm infrastrukturu formalaşdırılacaq. Bütün yaşayış evləri, sosial obyektlər, inzibati və ictimai iaşə binaları, kənd təsərrüfatı məhsullarının emalı və istehsalı prosesi alternativ enerji mənbələri ilə təmin ediləcək. Layihənin icrasında Türkiyə, Çin, İtaliya və İsrail şirkətlərinin mütəxəssisləri də iştirak edirlər. Dövlət başçısı İlham Əliyev xarici şirkət nümayəndələri ilə videoformatda görüşü zamanı bildirmişdir ki, birinci layihədə Türkiyə şirkəti iştirak edir. Bu, təbiidir. Çünki qardaş ölkə olan Türkiyə bizim bütün bərpa işlərində fəal iştirak edəcək. Artıq bir neçə Türkiyə şirkəti bərpa işlərində, infrastruktur layihələrində iştirak edir. Əslində bu, azad edilmiş torpaqlarda inşa edilən birinci kənddir. Əlbəttə ki, bu kəndin çox böyük önəmi var. Çünki Böyük Qayıdış bu gün başlayır.




Yuxarıda qeyd etdiyimiz kimi, azad edilmiş ərazilərimizdə Prezident İlham Əliyevin tapşırığı ilə yol infrastrukturunun bərpası prioritet məslə kimi öndədir. Avtomobil yolu, dəmir yolu və hava limanının tikintisi prioritetdir. Yeni tikiləcək beynəlxalq hava limanları Qarabağ zonasını bərpa etmək, yüklərin daşınmasına, turizmin inkişafına böyük kömək olacaq. Hədəflərə vaxtında və yüksək səviyyədə nail olmaq üçün bütün qüvvə və bacarıqlar səfərbər edilir. Dövlət başçısı İlham Əliyevin çıxışlarında qeyd olunduğu kimi, necə ki, dəmir yumruq nümayiş etdirib torpaqlarımızı işğaldan azad etdik, eyni zamanda, bu birlik, həmrəylik əsasında bərpa və quruculuq işlərini uğurla başa çatdıracaq, soydaşlarımızın Böyük Qayıdışı həyata keçiriləcək.

Azad edilmiş ərazilərimiz böyük turizm potensialına malikdirlər. 30 ilə yaxın dövrdə mənfur düşmən bu potensialdan istifadə edərək özünün iqtisadi vəziyyətini yaxşılaşdırmağa çalışıb. Hazırda beynəlxalq səviyyədə ekspertlər bu reallığı xüsusi qeyd edirlər ki, Vətən müharibəsində Ermənistanın məğlubiyyəti, torpaqların əsl sahibinə qayıtması işğalçı dövlətdə iqtisadi böhranı daha da dərinləşdirəcək. Qarabağ Azərbaycanın əsas turizm zonasına çevriləcək. Beynəlxalq turizm sərgilərində Qarabağ bölgəsinin turizm potensialı, turizm marşrutları, tarixi abidələri göstəriləcək. Təmir-bərpa işləri yekunlaşdıqdan sonra Qarabağ turistlərin sevimli məkanlarından biri olacaq. O da məlumdur ki, işğaldan azad olunmuş ərazilərin müqayisəli üstünlükləri əsasında 4 regional mərkəzin yaradılması nəzərdə tutulub. Ağdamda sənaye mərkəzi, Cəbrayılda logistika və ticarət mərkəzi, Şuşada mədəniyyət və turizm mərkəzi, Kəlbəcərdə hasilat və turizm mərkəzi yaradılacaq. Ağdamda yaradılacaq sənaye mərkəzində ilkin müraciətlər əsasında 33 kiçik istehsal və xidmət müəssisəsi, iri sənaye və qida sənayesi müəssisələri fəaliyyət göstərəcək. Buraya 110 milyon manata yaxın sərmayə qoyulacaq, 330 iş yeri açılacaq. Ağdamın strateji coğrafi mövqeyi, digər bölgələrlə qovuşuqda yerləşməsi, insan resursları potensialı və infrastruktura çıxış imkanları rayonun gələcəkdə Qarabağın sənaye mərkəzinə çevrilməsi imkanlarını genişləndirir.

Göründüyü kimi, qısa təhlil Qarabağın hansı potensiala malik olduğunun və onlardan səmərəli istifadənin hansı uğurlara yol açacağının aydın mənzərəsini yaradır. Çıxışlarında Azərbaycanın son 18 ildə qazandığı uğurlara, keçdiyi inkişaf yoluna diqqət yönəldən dövlətimizin başçısı İlham Əliyev düzgün qurulan siyasətin beynəlxalq maliyyə qurumlarının hesabatlarında da liderliyimizi qorumağa əsas yaratdığını xüsusi qeyd edir. Təkcə Davos Ümumdünya İqtisadi Forumunun hesabatına diqqət yetirməklə ölkəmizin nəqliyyat infrastrukturunun yenilənməsinə və təkmilləşməsinə göstərdiyi diqqətin ümumi mənzərəsini təqdim edə bilərik. Azərbaycan əhalinin elektrik təchizatı səviyyəsinə görə dünya miqyasında ikinci yerdədir. Hökumətin dəyişməyə cavabdehliyi, yeni islahatçı obrazı əmsalına görə beşinci yerdə, hökumətin uzunmüddətli strategiyasına görə 10-cu yerdədir. İnfrastruktur layihələri ilə bağlı olaraq dəmir yolu xidmətlərinin səmərəliliyinə görə 11-ci, hava yolları xidmətlərinin səmərəliliyinə görə 12-ci, avtomobil yollarının keyfiyyətinə görə isə 24-27-ci yerlərdədir. Bu hesablama inkişaf etməkdə olan 74 ölkə arasında aparılmışdır. İnklüziv inkişaf indeksi üzrə Azərbaycan üçüncü yerdədir.

Cənab İlham Əliyevin qeyd etdiyi kimi, bütün çətinliklərə, işğala, 1 milyon qaçqının olmasına baxmayaraq, ötən illər ərzində bu nailiyyətləri əldə etmişik: ”İndi torpaqlar azad edilib, indi böyük qayıdış başlanmalıdır, böyük inkişaf prosesləri başlanmalıdır. Ona görə, əlbəttə, biz bütün bu işləri daha da fəal, daha da məqsədyönlü şəkildə aparmalıyıq ki, Azərbaycanın imkanlarını genişləndirək və ölkəmizin inkişaf dinamikasını artıraq.” Dövlət başçısı İlham Əliyevin Sərəncamı ilə təsdiqlənən ”Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər” məhz bu istəklərin reallığa çevrilməsinə hədəflənib. Bu sənədin ardınca iqtisadi rayonların yeni bölgüsü ilə bağlı Fərman imzalandı. Dövlət başçısı İlham Əliyevin 10 dekabr 2021-ci il tarixli ”İşğaldan azad edilmiş ərazilərdə iqtisadi inkişafın sürətləndirilməsi ilə bağlı bəzi tədbirlər haqqında” Sərəncamı da işğaldan azad edilmiş ərazilərdə iqtisadi canlanmanın sürətləndirilməsi və investisiya cəlbediciliyinin artırılması, müasir və effektiv istehsal, ticarət və xidmət infrastrukturunun yaradılması, innovativ texnologiyaların tətbiqi, sənaye potensialının reallaşdırılması, optimal güzəştlərin və stimullaşdırıcı mexanizmlərin hazırlanması və sahibkarlıq mühitinin yaxşılaşdırılması üçün əlverişli şərait yaradılması kimi məqsədləri özündə ehtiva edir. Sənəddə də qeyd olunduğu kimi, Azərbaycanın işğaldan azad edilən ərazilərinin bərpası, milli iqtisadiyyata sürətli inteqrasiyası, dayanıqlı inkişafının təmin olunması, orada ən müasir infrastrukturun qurulması, mədəni-tarixi abidələrin bərpası və layiqli yaşayış şəraitinin yaradılması istiqamətində genişmiqyaslı tədbirlər həyata keçirilir. Bu çərçivədə icra olunan layihələr həmin ərazilərin qısa müddət ərzində sülh və əməkdaşlıq bölgəsinə çevrilməsində və iqtisadi inkişafında mühüm rol oynayacaq. Həmin ərazilərdə zəngin resurs və infrastruktur potensialından səmərəli istifadə, dövlət-özəl sektor tərəfdaşlığı və ən əlverişli biznes mühiti əsasında iqtisadi fəaliyyətin canlandırılması və dayanıqlı məskunlaşmanın təmin olunması ölkənin uzunmüddətli inkişaf prioritetləri ilə vəhdətdə olan tədbirlərlə dəstəklənməlidir.

***Yeganə Əliyeva***

*Tanınmış rusiyalı ssenarist və prodüser Sergey Danielyan "Caliber" analitik mərkəzinə müsahibəsində Ermənistan-Azərbaycan münaqişəsi və iki xalq arasındakı münasibətlərlə bağlı maraqlı fikirlər səsləndirib. Müsahibəni oxucularımıza təqdim edirik.*



Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Dini və milli tolerantlıq, millətlərarası münasibətlərin inkişafı" istiqaməti çərçivəsində hazırlanıb.*

# Sergey Danielyan: "Ermənilərdə azərbaycanlılara qarşı yüz illərdir yetişdirilən fizioloji nifrət var"

**- Sizcə, nə üçün Azərbaycan və Ermənistan arasında müharibənin bitməsindən bir il keçsə də, razılığa gələ bilmirlər? Səbəb nədir?**

- Ermənistanla Azərbaycan heç vaxt razılığa gələ bilməyəcək. Mən indiki vəziyyətdən yox, qlobal mənada danışıram. Həqiqət sadədir, lakin xoşagəlməzdir. Ermənilər azərbaycanlılara və türklərə nifrət edirlər. Yüz ildir yetişdirilən fizioloji nifrət var. Bir neçə nəsil bu nifrətlə böyüdü. Təəssüf ki.

Azərbaycan indi danışıqlara daha hazırdır. O, qalibdir, ən yaxşı münasibətə malikdir. Uduzan isə Ermənistan tərəfidir və bu, onun üçün daha çətindir. Paşinyanın isə sərbəst hərəkət etmək səlahiyyəti yoxdur. Ölkə daxilində çox güclü müxalifət var. Elə liderlər var ki, yatıb yuxuda Qarabağı necə geri alacağını görür. Və heç bir qurban onları narahat etmir ... Fərqli əhval-ruhiyyə var və danışıqlar aparmaq çətindir.

**- Amma bu yaxınlarda rəsmi İrəvan Rusiyanın vasitəçiliyi ilə Ankara ilə münasibətləri düzəltməyə hazır olduğunu açıqladı...**

- Ermənistanın rəsmi rəhbərliyinə və onun heç bir bəyanatına inanmayın. Erməni cəmiyyətində Ərdoğana nifrət çox güclüdür. Bir çox bloggerlər təəssüf ki, məni bağışlayın, onu Hitlerlə müqayisə edirlər. Mən bunu ciddi deyirəm. Ermənilər məğlubiyyətlərində türkləri günahlandırırlar. Mən mövcud əhval-ruhiyyədən danışıram.

Siyasətçilərin dedikləri isə başqa məsələdir. Amma onların dediyində zərrə qədər də səmimiyyət yoxdur.

**- Yəni, barışıq gözləmək lazım deyil?**

- Barışıq? Bu gün? Bu, sırf texniki sualdır. Amma barışıq yox, sərhədlərin müəyyənləşdirilməsi və s. ola bilər. Mən bunu nəzərdə tuturam. Bəs həqiqi barışıq? Mən ona inanmıram. Düşünürəm ki, üç-dörd nəsil dəyişməlidir... Bundan tez çətindir.

**- Rusiya və ya Qərbin simasında vasitəçilərə arxalanmadan hər iki tərəf təkbaşına razılığa gələ biləcəkmi?**

- Vasitəçilər lazımdır, təbii ki. Təkcə ona görə ki, Əliyevlə Paşinyan birbaşa əlaqə saxlamasın. Rusiyanın sülhə kömək edəcəyinə inanıram. Həm rahat, həm də başa düşülən nəzarət mövcuddur. Mən Qərb vasitəçilərinə inanmıram. Onlar, əlbəttə ki, konfliktdə maraqlıdırlar, amma problemin həlli ilə dərindən maraqlanmırlar. Ancaq Rusiya onlara əhəmiyyət vermir. Bu ölkələr onun cənub qonşularıdır və mən hamı ilə normal və konstruktiv münasibətlər qurmaq istəyir. Biz Rusiya vasitəçiliyinə inanmalıyıq, sonrasına baxarıq.

**- Bildiyiniz kimi, Azərbaycan və Ermənistandan kənarda azərbaycanlılar və ermənilər bir-biri ilə yaxşı anlaşır, amma iki ölkə arasında gərginlik səngimir. Sizcə, bu paradoksun səbəbi nədir?**



- Kiçik aydınlaşdırma. Erməni dediyimiz iki millət var. Ermənistandan gələn ermənilər. Və Ermənistan ərazisindən kənarda doğulub yaşayan ermənilər. Və hətta üçüncü bir millət var, o, ümumiyyətlə ayrıdır! Bunlar Azərbaycanda doğulub boya-başa çatan, Bakının günəşi ilə, ölkənin mədəniyyəti ilə doymuş ermənilərdir. Onlar, ümumiyyətlə, ayrı və sevimlidirlər.

**- Azərbaycan və Ermənistan liderlərinin Brüssel görüşündən nə gözləyirsiniz?**

- Mən həqiqətən də Brüsseldəki görüşün nəticələrinə ümid edirəm. Çox. Biz, əlbəttə, realist olmalıyıq, amma ümid edirəm ki, məsələlərin heç olmasa yarısı öz həllini tapacaq. inanmaq istəyirəm.

**- Rusiya sülhməramlıları Qarabağda olması silahlı toqquşmaların qarşısını ala bilmədi. Sizcə niyə?**

- Rusiya sülhməramlıları hər şeyə qadir deyil. Sülhməramlılar, adətən, ayırıcı xətt tuturlar. Və onlar sərhədyanı ərazilərə tam nəzarət edə bilmirlər. Ona görə də bəzən atışma səsləri eşidilir. Amma bu, anladığımız kimi, düşmənçilik deyil, regionlararası münaqişələri həmişə müşayiət edən adi təxribatlardır... Təəssüf ki, belə olur. Bu, mütləq vaxt tələb edir.

**- Qarabağ münaqişəsinin SSRİ-nin dağılmasının katalizatoruna çevrildiyini deyə bilərikmi?**

- Bu münaqişənin, məncə, SSRİ-nin dağılması ilə heç bir əlaqəsi yoxdur. O vaxtı yaxşı xatırlayıram və o illərin əhval-ruhiyyəsini xatırlayıram. Bunu sizə deyim: 15 respublikadan 6-7-si SSRİ-dən ayrılmaq və müstəqilliyə can atmaq arzusunda idi. Təəssüf ki, biz bunu sınadıq, amma çoxları peşman oldular. Amma onlar partizan kimi susurlar. Valideynlərinin evindən qaçmaq istəyən, sonra yenidən onların damlarının altında gizlənən uşaqlar kimi. O zaman SSRİ-ni xilas etmək mümkün deyildi. Mən bunu dəqiq bilirəm. Belə bir ehtimalın olduğunu iddia edən politoloqlar isə, sadəcə, nəzəri olaraq danışırlar. Belə imkan yox idi.

**- Yenidən Bakıya gəlmək istərdinizmi?**

- Mən Bakıda anadan olmuşam, böyümüşəm, 27 yaşıma kimi orada yaşamışam, sonra orada daha yaxşı edə biləcəyim peşə ilə məşğul olmaq üçün Moskvaya getmişəm. Ancaq sonra kədərli hadisələr baş verdi və mən valideynlərimi Moskvaya apardım. Amma bu başqa hekayədir. Yeri gəlmişkən, 1990-cı ilin yanvarında Sovet ordusu Bakıya tanklarla girəndə bu, erməni əhalisinin müdafiəsi üçün deyildi. Yox. Bu, Azərbaycanda Sovet hakimiyyətini xilas etmək üçün sonuncu cəhd idi. Yalnız bu səbəb idi və başqa heç nə yox idi ...

Bakıya səfər etmək istərdimmi? Əlbəttə. Səhhətim normal deyil, amma hər gecə gözümü yumub marşrutu, yeri seçirəm! Bir neçə gün əvvəl xəyali olaraq "Sahil" kafesinin 2-ci mərtəbəsində oturmuşdum. Qəhvə, dondurma, siqaret. Axşam idi... Xəzərin qoxusu... Bakıya tez-tez gəlirəm. Teztez...

***Tərcümə - Elçin Bayramlı***

# "Ən qısa zamanda sülh prosesinə gedişin yolu açılmalıdır"

***Son dövrə, İkinci Qarabağ savaşından sonrakı dövrə nəzər saldıqda, baxmayaraq ki, üçtərəfli formatda atəşkəs müqaviləsi imzalanıb, amma dəfələrlə Ermənistan tərəfindən təxribatlar baş verib. Bu sözləri SİA-ya verdiyi açıqlamasında politoloq Samir Hümbətov deyib.***

Politoloq qeyd edib ki, sərhəd pozuculuğu təkcə Qarabağ ərazisində deyil, eyni zamanda Azərbaycan-Ermənistan dövlət sərhəddində də baş verir. "16 noyabr tarixində baş verən təxribat nəticəsində 7 hərbçimiz şəhid edildi, ondan sonrakı dövrdə bir hərbçimiz şəhid edildi və bu onu göstərir ki, deməli, mövcud mexanizm atəşkəsin qorunub saxlanmasına dəstək ola bilmir, yaxud da mövcud mexanizm elə qurulub ki, o atəşkəsin təmin olunmasına imkan vermir. Yəni, burada mexanizm dedikdə təbii ki, Rusiya faktorunu nəzərdə tuturuq, çünki üçtərəfli bəyannamənin bir tərəfi də Rusiyadır. Qaldı ki, bu atəşkəsin pozulması halları, bu prosesi, düşünürəm, o qədər sadə bir şəkildə mümkün deyil. Nə qədər ki, tərəflər arasında sülhün əldə olunması ilə bağlı konkret addımlar atılmayıbdır, bu atəşkəsin pozulma halları mütəmadi xarakter alacaqdır və düşünmürəm ki, Avropada keçirilən görüş, Brüssel görüşü bu atəşkəs pozulmasının qarşısını ala bilər, yaxud da ona ciddi bir töhfə verə bilər.



Hesab edirəm ki, tərəflər arasında birinci konsensus əldə olunmalıdır. Yəni, qarşılıqlı etimad və biri-birinin sözünün boğazından keçməsi məsələsi ortaya qoyulmalıdır və bu qəbul edilməlidir. Tərəfləri də bu məsələdə digər maraqlı qüvvələr məcbur etməlidir, yaxid da hansı tərəf bunu istəmirsə onu məcbur etmək lazım gəlir. Digər tərəfdən isə, dünənki görüşdə, yəni Brüssel görüşündə tərəflərin apardığı danışıqlar, həm Azərbaycan Prezidenti cənab İlham Əliyevin söylədiyi fikirlər, eləcə də Paşinyanın görüşdən sonra söylədikləri onu göstərir ki, tərəflər arasında liderlər səviyyəsində məsələnin həll olunmasına hardasa bir cəhd var, amma məsələ burasındadır ki, Ermənistanın daxilində olan parçalanma, yəni Qərb və Rusiya meyilli qüvvələrin arasında gedən intriqa nəticə etibarı ilə Azərbaycan-Ermənistan dövlət sərhəddində, və ya Qarabağ ərazisində tez-tez insidentlərin baş verməsinə gətirib çıxarır. Problemi aradan qaldırmaq üçün bu, mərhələli şəkildə həyata keçirilməlidir. Birincisi, ya atəşkəs mexanizminə nəzarət funksiyasını daha da gücləndirmək, yaxud da bu mexanizmi yenidən işləmək lazımdır, ya da digər tərəfdən görünür Rusiya sülhməramlı qüvvələri həyata keçirdiyi funksiya tam şəkildə atəşkəsi təmin edə bilmir, deməli bura Türkiyə qüvvələrinin də cəlb olunması lazımdır. Çünki, sülhməramlı qüvvələrin və sərhəddə konkret olaraq bir mexanizm işləyib hazırlamaq lazımdır ki, o mexanizm əsasında atəşkəsi müvəqqəti olaraq qorusun, o vaxta qədər ki, sülh müqaviləsinə gedən yol var, o gedib çıxılmalıdır. Həmin o müqavilə imzalanandan sonra tərəflər bir-birinin ərazi bütövlüyünü tanıyacaq və sərhəddə atışmalar, hesab edirəm ki, aradan qalxacaq. Əgər bu olmayacağı təqdirdə biz, çox təəssüflə demək lazımdır ki, tərəflər arasında mütəmadi şəkildə atəşkəsin pozulması hallarına rast gəlinəcək, mütəmadi şəkildə Ermənistanın aqressiya göstərdiyinin şahidi olacağıq. Ona görə də bu məsələdə yenidən mexanizmin işlənməsi, yenidən nəzarət mexanizmi vacibdir və ən qısa zamanda sülh prosesinə gedişin yolu açılmalıdır ki, bu da çox vacib məsələdir", deyə Samir Hümbətov bildirib.

***İnam Hacıyev***

SƏS
16 dekabr
2021-ci il

# Levandovski Müllerin rekordunu təkrarladı



*"Bavariya" Almaniya Bundesliqasının 16-cı turunda "Ştutqart"a 5:0 hesabı ilə qalib gəlib. Qol.az xəbər verir ki, səfərdə dubl edən Robert Levandovski üçün bu oyun əlamətdar olub. Polşalı hücumçu Gerd Müllerin rekordunu təkrarlayıb. O, Müller kimi il ərzində 42 qol həddinə çatıb. Müller bu rekorda 1972-ci ildə imza atıb.*


## «SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR



1 .Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressainform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Kaspi Mətbuat Yayım – 0125106196, 0502685868
9. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN


# Beren Saatın geyimi qiymәti ilә diqqәt çәkib



Türkiyəli aktrisa Beren Saat bir brendin reklam çəkilişi üçün üslubunu dəyişib. Yeni imici ilə diqqət çəkib. SİA xarici mətbuata istinadən bildirir ki, Beren Saatın çəkiliş üçün geyindiyi kostyumun qiyməti diqqət çəkib. Son olaraq ”Atiye” serialında rol alan Beren Saat bir müddətdir ki, ekranlardan uzaq düşüb. 37 yaşlı gözəl yeni il öncəsi etdiyi reklam müqaviləsi ilə adından söz etdirib.

Məşhur aktrisa tünd rəngli saçlarını parlaq sarıya boyadıb. Daha sonra o ”çolka” kəsdirib. Aktrisa qızılı rəngdə köynəyini 13 min türk lirəsinə alıb. Geyimin qiyməti çoxlarını təəccübləndirib.

***Abutel İlhamqızı***

# Sosial şəbəkələrdə falçılar insanları NECƏ ALDADIR?

*“Kommunikasiya İnformasiya Texnologiyasının (İKT) inkişafı Azərbaycanda hər kəsə virtual aləmdə geniş fəaliyyət göstərmək imkanı yaratdı. Bu imkandan hər bir vətəndaş öz marağına, istəyinə və öz prinsiplərinə uyğun faydalanır". Bu sözləri SİA-ya verdiyi açıqlamasında sosioloq Asif Bayramov deyib.*



”Tutalım əgər yaradıcı insan virtual aləmin imkanlarından öz elmi yaradıcılığı üçün faydalanırsa, fərqli zümrələr, fərqli sosial peşə sahibləri öz peşələrinə uyğun fayda götürürlər. Lakin təəssüflər olsun ki, sosial həyatımızda kifayət qədər dələduzluq düşüncəsi ilə yaşayan insanlar var. Onlar sosial həyatdakı boşluqlardan istifadə edərək insanları aldadırlar, eynən virtual məkanda həmin insanlar üçün yeni imkanlar açır, yeni dələduzluq təfəkkürü ilə yaşayan həmin kateqoriya üçün yeni imkanlar açır. Bəs vətəndaşları onların cinayətkar əməllərindən kim qorumalıdır? Təbii ki, onları qanunlar, hökumət, müvafiq dövlət qurumları qorumalıdır. Bunun üçün qorunmanın normativ hüquqi bazası yaradılmalıdır. Çünki əgər cəmiyyətdə insanların fəaliyyət sferası genişlənir və virtual aləmə keçirsə, o zaman insanların fəaliyyətini tənzimləyən yeni normativ hüquqi sənədlər qəbul olunmalıdır. Bunun üçün də səlahiyyətlilərin üzərinə düşən vəzifələrdən biri də Azərbaycanın Milli Məclisinə bu problemlərlə bağlı təkliflər təqdim etməkdir. Çünki vətəndaş həmin virtual aləmdə kimin necə olduğunu dərk edə bilməz, mələk donunda olan iblislər istər sosial, istərsə də virtual həyatımızda kifayət qədər çoxdur. Sosial şəbəkədə iblislər var ki, həmin boşluqdan maksimum faydalanmağı sevirlər. Ancaq biz bir vətəndaş olaraq, bütün sferalarda qanun səviyyəsində müdafiə olunmalıyıq, bizim haqqımız, hüququmuz müdafiə olunmalıdır və bunun da müdafiəsi hakimiyyət tərəfindən təşkil olunmalıdır”.

***Rüqəyya Orucova***

## ELAN

**Yeni Azərbaycan Partiyası tərəfindən Rəhimli Aybəniz İbrahim qızına verilmiş üzvlük vəsiqəsi itdiyi üçün etibarsız sayılır.**

# Əcnəbi vətəndaşın pulqabısını oğurlayanlar yaxalandı

***Səbail Rayon Polis İdarəsinin 9-cu polis bölməsinə dekabrın 14-də əcnəbi vətəndaşın içərisində 1200 manat məbləğində pul, bankomat kartı və sənədlər olan pulqabısının oğurlanması barədə məlumat daxil olub.***

Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, oğurluq əməlini törətməkdə şübhəli bilinən Ağstafa rayon sakini R.Bukavadze, əmisi oğlu M.Bukavadze və Yevlax rayon sakini A.Bəkirov polis əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində müəyyən edilərək saxlanılıblar. Faktla bağlı rayon polis idarəsi tərəfindən araşdırma aparılır.




*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 4600**